www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 avqust 2017-ci il Cümə axşamı № 171 (6785) Qiymətı 60 qəpik

**Xəbər**

**Azərbaycanda arxeoloji qazıntı zamanı aşkarlanmış nadir tapıntılar oğurlandı**

yazısı səh.14-də

**Gündəm**

**Dağlıq Qarabağ - danışıqlar və müharibə: son durum**



**Polkovnik Şair Ramaldanov:** "Bu gün 100 km-lik dərinliyi azad etmək üçün 5 gün də bəs edər"

yazısı səh.7-də

**Rusiya Moldovanı qarışdırmaq istəyir**

yazısı səh.9-da

**Yüksək balla kənarda qalan 3 abituriyentin taleyi necə olacaq?**

yazısı səh.3-də

**Müxalifət 2018 seçkilərinə hazırlaşırmı - siyasi liderlərdən önəmli açıqlamalar**

yazısı səh.5-də

**ABŞ-ın Rusiyaya qarşı sanksiyaları Azərbaycana da təsir edə bilər**

yazısı səh.10-da

**Deputat Fazil Mustafa ilə ADP sədri Sərdar Cəlaloğlunun söz dueli...**

yazısı səh.5-də

**Qeysəriyyə, yoxsa təbii doğuş - hansı daha təhlükəsizdir?**

yazısı səh.13-də

**Tramp Amerikanı və dünyanı hara aparır...**

yazısı səh.10-da

**Gədəbəydə həmyaşıdı 14 yaşlı yeniyetməni öldürdü**

yazısı səh.14-də

**Günəş tutulması fəlakətlər gətirə bilərmi...**

yazısı səh.15-də

**Uşağı necə cəzalandıraq - fransız pedaqoqdan məsləhətlər**

yazısı səh.13-də

## "Ermənistan riskli oyuna girib, özünü dalana salıb"

# "MOSKVA İRƏVANI QARABAĞLA CƏZALANDIRACAQ" - SENSASİON GÖZLƏNTİ

İrəvanın xarici siyasətdə iki və daha çox "stulda oturmaq" taktikası ona baha başa gələ bilər - şimaldan hədə gəldi; Rusiya baş naziri düşmən ölkəyə gedir; Medvedyev nankor müttəfiqə hansı mesajı aparır?..




yazısı səh.8-də

## "Vurulmuş" Mahmudovları yenidən "dirçəldən" səbəb

Eldar Mahmudov "MTN işi" başa çatmamış başını dikəltməyə çalışır; ekspert: "Onun oğlunun hansısa biznesini inkişaf etdirməsi heç də təəccüblü deyil"

yazısı səh.6-da



*Professor Saleh Məmmədov:*

**"İsraillə dərin əməkdaşlıq Azərbaycan üçün böyük perspektivlər açar"**

yazısı səh.4-də



*Deputat Elman Məmmədov:*

**"Ermənilərə vətəndaşlıq verə bilərik"**

yazısı səh.11-də



**Prokuror Akif Çovdarova 15 il cəza istədi**

yazısı səh.6-da

# "Turan"da yoxlama başlandı

## Mehman Əliyev: "Agentliyi bağlaya bilərlər"



**Avqustun 16-da səhər saatlarında Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentininin əməkdaşları "Turan" İnformasiya Agentliyində yoxlamaya başlayıb. Onlar sənədləri götürüb, eyni zamanda əməkdaşların şəxsi əşyalarını yoxlayıblar. Amma yoxlama və sənədlərin götürülməsi prosesini çəkməyə icazə verməyiblər. Vergi nümayəndələri yoxlama və götürmə barədə sanksiyaya dair sənədin surətini verməyiblər, ancaq tanış olmaq üçün göstəriblər.**

Musavat.com-a açıqlamasında **"Turan"-ın direktoru Mehman Əliyev** dedi ki, agentliyə qarşı külli miqdarda vergidən yayınma ittihamı irəli sürülüb və bu çərçivədə hazırda yoxlama prosesi gedir: "Nəticəni də təxmin etmək çətin deyil. "Turan"ı bağlaya bilərlər. Təbii ki, bu proses qanuna zidd hərəkətlər nəticəsində baş verə bilər".

**Müsahibimiz "Turan"ın, eləcə də rəhbəri olduğu rusdilli saytın - contact.az-ın son dönəmlər hansısa yazısı, xəbəri əsasında bu təzyiqin başlanma ehtimalını isə qəbul etmədi. O iddia edir ki, ümumiyyətlə, ölkədə azad mətbuat adına heç nə qalmayıb:** "Hər kəsi, hər şeyi nəzarət altına götürürlər. İndi isə nəzarəti tam ələ keçirmək istəyirlər. Öncə sənədləri yığıb aparacaqlar, sonra da... Davamı hər zamankı kimi olacaq. Öncə cinayət işi açırlar, sonra yoxlama, sənədlərin təftişi gedir".

Dünən saat 14.00 radələrində Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin nümayəndələri Turan İnformasiya Agentliyində axtarışı yekunlaşdırıblar və agentliyin ofisini tərk ediblər.

Vergi əməkdaşları 2014-cü ildən etibarən agentliyin maliyyə sənədlərinin, kargüzarlıqla və onlara "maraqlı" gələn jurnalistlərin şəxsi işləri ilə bağlı bir sıra digər sənədlərin surətlərini götürüblər. Agentliyin mühasibinin şəxsi noutbuku da götürülüb. Bu zaman əməkdaşların şəxsi əşyalarına və bəzi kompüterlərin yaddaşına baxış keçirilib. Amma istintaq orqanları jurnalistlərin işi ilə bağlı məlumatla maraqlanmayıblar.

Maraqlıdır ki, agentlik nümayəndələri vergi əməkdaşlarına sənədlərin surətlərini avqustun 17-də təqdim edəcəklərini söyləməsinə baxmayaraq, axtarış aparılıb. Digər tərəfdən, agentliyə avqustun 8-də cinayət təqibi başlanması haqqında rəsmi məlumat verilib və sənədlərin təqdim edilməsi üçün 15 gün vaxt ayrılıb.

"Turan" vergi ödənişindən yayınma haqqında bütün iradları rədd edir, cinayət işini qərəzli, sifarişli, jurnalistlərin peşə fəaliyyətinə qarşı yönəlmiş addım kimi qiymətləndirir.

Agentlik cinayət işinin əsassız olduğu barədə şikayətlə 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə müraciət edib. Amma məhkəmə hələlik hazırlıq iclasının tarixini müəyyən etməyib.

M.Əliyev bir neçə gün öncə vergilər naziri Fazil Məmmədova müraciət edərək bildirib ki, Vergilər Nazirliyin qərar və hərəkətlərindəki sinxronluq onu göstərir ki, onların bu fəaliyyəti "Turan"-ın fəaliyyətini əngəlləmək, iflic etməkdir.

**Xatırladaq ki, "Turan"a qarşı cinayət işi avqustun 7-də başlayıb. Vergi nümayəndələri 2014-2016-cı illərdə 37 min manat məbləğində vergidən yayınmanın olduğunu bildirir.**

❑ SEVİNC



## Prezident Binəqədi, Mehdiabad və Novxanıda su infrastrukturunun yenidən qurulmasına 4 milyon manat ayırdı

**Azərbaycan prezidenti İlham Əliyev Bakı şəhəri Binəqədi rayonunun Binəqədi, Abşeron rayonunun Mehdiabad və Novxanı qəsəbələrində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, bu məqsədlə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 4 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.



## Bir qrup hərbçi şəhid mayorun ailəsinə baş çəkib

**Bir qrup hərbi qulluqçu işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı ötən ilin aprel döyüşlərində şəhid olmuş mayor Əliyev Elnur Adil oğlunun ad günündə onun ailəsinə baş çəkib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Füzuli rayonunda keçirilən tədbirdə hərbi hissənin zabitləri, qoşun təcrübəsində olan kursantlar, ictimaiyyət nümayəndələri və yerli sakinlər iştirak ediblər.**

Mərasim iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib, əklil və gül dəstələri qoyublar.

E.Əliyev, eləcə də bütün şəhidlərin ruhuna dualar oxunub, şəhid olmuş Vətən övladlarının xatirəsi qürurla yad edilib. E.Əliyevin ailə üzvlərinə Müdafiə Nazirliyinin rəhbərliyi və onunla birlikdə xidmət etmiş hərbi qulluqçular adından başsağlığı çatdırılıb, şəhidlərimizin qisasının daima alındığı və düşmənə hər an layiqli cavab verildiyi qeyd olunub.

Sonra şəhidin valideynlərinin yaşadığı ünvanda görüş keçirilib. Toplaşanlar E.Əliyevi yad edərək onunla bağlı xatirələrini bölüşüblər.

## Xəzər daha bir insanı "uddu"



**Sumqayıtda bir nəfər dənizdə batıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən, Sumqayıt şəhəri, Corat qəsəbəsində 1 nəfər dənizdə batıb. Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilər hadisə yerinə cəlb olunub.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Əmək haqqı və digər ödənişlər üzrə nağd pul məxarici 75,3 faiz azalıb" - Nazir müavini

**"Nağdsız hesablaşmalar haqqında" qanunun tətbiqi öz səmərəli nəticəsini verir".**

"APA-Economics"in məlumatına görə, bunu vergilər nazirinin müavini İlkin Vəliyev deyib. Onun sözlərinə görə, qanunun tətbiqi nəticəsində iqtisadiyyatın bütün sahələrində nağdsız ödənişlərin dövriyyəsinin artması, xərclərin şəffaflığının təmin edilməsinə, gəlirlərin, əmək haqlarının və digər ödənişlərin leqallaşmasına və digər iqtisadi göstəricilərinin yüksəlməsinə şərait yaranıb.

"Bu isə vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanıb ödənilməsi, vergidən yayınma hallarının azalması və vergi sahəsində şəffaflığın artmasına səbəb olub. Konkret rəqəmlərə müraciət edək. Məsələn, cari ilin bitən dövrü ərzində mal, iş və xidmətlərin alınmasına görə nağd pul məxarici 62,6 faiz, ticarət müəssisələri üzrə 67,5 faiz, əmək haqqı və digər ödənişlər üzrə 75,3 faiz azalıb. Qanunun gələcək tətbiqi qeyd etdiyim sahələrdə səmərəliliyin daha da artmasına imkan yaradacaq", - deyə nazir müavini vurğulayıb.

## "Astan Şahverdiyevə yenə qulaqburması veriləcək" - Ağacan Abıyev



**"Deputat Astan Şahverdiyevlə bağlı məsələyə sentyabrın 15-də deputatlar işə çıxandan sonra baxılacaq". "Qaynarinfo" xəbər verir ki, bunu "Ölkə.Az"-a açıqlamasında Milli Məclisin İntizam komissiyasının sədri, deputat Ağacan Abıyev bildirib.**

Komissiya sədri deyib ki, deputatlar işə çıxandan sonra Astan Şahverdiyevlə bağlı daxil olan şikayətlərə baxılacaq:

"Astan Şahverdiyevlə bağlı şikayətlərə baxıldıqdan sonra müvafiq qərar qəbul olunacaq. Əgər şikayətlər olsa, yəqin ki, Astan Şahverdiyevə yenə qulaqburması veriləcək. Ancaq hələlik məlum deyil ki, onunla bağlı hansı şikayətlər var. Bu məsələ obyektiv araşdırılandan sonra müvafiq addımlar atılacaq".

**A.Abıyev Astan Şahverdiyevin mandatının ləğv ediləcəyi barədə yayılan xəbərlərə də münasibət bildirib:**

"Mən heç zaman deməmişəm ki, Astan Şahverdiyevin mandatı ləğv olunacaq. Bunu mənə sual verənlər yazır. Mən indidən Astan Şahverdiyevin mandatının ləğv olunub-olunmayacağını dəqiq deyə bilmərəm. Məsələ obyektiv araşdırılacaq. Elə şikayət ola bilər ki, o bizlik olmaz, həmin məsələni Baş Prokurorluğa göndərə bilərik, mandat məsələsini də Prokurorluq həll edər. Mandatın alınması məsələsi prokurorluğun səlahiyyətinə aiddir. Ona görə də jurnalistlər bu məsələdə tələsməməlidir. Əmin olun ki, məsələ obyektiv araşdırılacaq".

**A.Abıyev həmçinin qeyd edib ki, əgər hər hansı deputat və ya digər şəxs oğurluq edib özünə biznes qurubsa, bunu araşdırmaq üçün Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi, müstəntiq var:**

"İntizam Komissiyası dünyanın bütün parlamentlərində var. Bizim işimiz Milli Məclisdə deputatların nizam-intizam məsələsinə baxmaqdır. Yoxsa ki, küçədə kimsə kimisə vurursa, söyüş söyürsə, buna biz baxmırıq, polis baxır. Bəzən jurnalistlər də bu məqamı qarışdırırlar. Milli Məclisin İntizam Komissiyası yalnız və yalnız parlament üzvlərinin qeyri-etik davranışlarına qiymət verir".

Məsələ ilə bağlı **Milli Məclisin deputatı Astan Şahverdiyev** Modern.az-a açıqlama verib: "Düzü, bu barədə danışmaq istəmirəm. Parlamentin iclasları başlasın, mən o zaman özümü müdafiə edəcəyəm.

Yoxsa mətbuat vasitəsilə özümü müdafiə etmək istəmirəm. Ona görə də münasibət bildirmirəm. Hər kəsin sifətini gördüm".



## 7 min tələbənin məskunlaşa biləcəyi yataqxana tikiləcək

**Bakı Dövlət Universitetinin (BDU) rektoru, akademik Abel Məhərrəmov 2017/2018-ci tədris ili üçün BDU-ya qəbul olmuş tələbələrin sənəd qəbulu prosesi ilə tanış olub. BDU-nun Mətbuat və informasiya şöbəsindən APA-ya verilən məlumata görə, rektor Universitet haqda tələbə və valideynlərlə qısa məlumat verib.**

Valideynləri maraqlandıran suallara cavab verən A.Məhərrəmov yataqxana məsələsindən də danışıb.

Son vaxtlaradək məcburi köçkünlərin məskunlaşdığı yataqxananın yararsız vəziyyətdə olduğunu deyən rektor, həmin binaların bir qisminin söküldüyünü və ərazidə təxminən 7 min tələbənin məskunlaşa biləcəyi böyük yataqxana kompleksinin inşa olunacağını da diqqətə çatdırıb.

BDU-nun bakalavriatura səviyyəsinə builki qəbul planı 65 ixtisas üzrə 5200 nəfərdir.

Qeyd edək ki, 2017-2018-ci tədris ilində tələbə adını qazanan abituriyentlərin sənədlərinin qeydiyyat prosesi avqust ayının 25-dək davam edəcək.

## "Şahdəniz" yatağından Gürcüstana qaz nəqli dayandırılıb

**Azərbaycanın "Şahdəniz" yatağından Gürcüstana təbii qazın nəqli dayandırılıb.**

APA-nın Gürcüstan bürosunun ölkənin Neft və Qaz Korporasiyasına istinadən verdiyi xəbərə görə, buna səbəb yataqda aparılan profilaktik işlərdir.

Cənubi Qafqaz boru kəməri ilə qaz tədarükü dayandırıldığına görə, hazırda Gürcüstana təbii qaz SOCAR-ın "Qazıməmməd-Qazax" magistral qaz kəməri ilə nəql olunur.

**Profilaktik işlərin sentyabrın 10-dək davam edəcəyi bildirilir.**

**2017/2018-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinin 42669 plan yerlərinin (müsabiqədənkənar plan yerləri xaric) müsabiqəsində 42804 abituriyent iştirak edib. Onlardan 36428 nəfəri ali təhsil müəssisələrinə qəbul olunub. 11775 nəfər dövlət sifarişi əsasında, 24653 nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ancaq 620, 640, 660 bal yığan 3 abituriyent isə heç bir ali məktəbə daxil ola bilməyib.**

# Yüksək balla kənarda qalan 3 abituriyentin taleyi necə olacaq?





## Xanlar Xanlarzadə: "Əgər istəsələr, boş qalan yerlər üçün müsabiqədə iştirak edə bilərlər"

## Etibar Əliyev: "Kənarda qalan abituriyentlər üçün biz də narahatçılıq keçiririk"

Səbəb isə 15 ixtisas seçimi etmək haqları olduğu halda onlar 1-2 ixtisas seçiblər. seçdikləri ödənişsiz əsaslı fakültələrin balı isə onların topladıqları baldan yüksək olub. Məsələn, III ixtisas qrupunda 660 baldan yuxarı toplayanlar hüquq fakültəsinin ödənişsizini yazıblar. Bu il isə hüquqda keçid balı 671 oldu. Onlar isə 660 balla kəsiliblər. Bu abituriyentlər necə psixoloji sarsıntı keçirdiklərini təsəvvür etmək mümkündür. Hətta abituriyentlər imtahan ərəfəsinə o qədər həssaslıqla yanaşır ki, onlar az bal yığdıqda və ya ali məktəbə qəbul ola bilmədikdə özlərinə zərər verir, hətta intihara belə əl atırlar. Məhz yüksək bal yığan bu 3 abituriyentlə bağlı da sosial şəbəkələrdə müzakirələr getdi. Kimiləri onlara şans verilməsini və hansısa ali məktəbə imtahansız qəbul olunmaları təklifini irəli sürdü, kimiləri 250 bal yığan bir abituriyent ali məktəbdə təhsil ala bilirsə, 600-dən yuxarı bal yığan bu abituriyentlərin kənarda qalmasının ədalətsizlik olduğunu bildirir.

Maraqlıdır, yüksək nəticə göstərən bu 3 abituriyentin nəticəsində də qəbul olmayıb. 4-cü ixtisas qrupundan olan bir nəfər isə müalicə işinin dövlət sifarişli yerini yazıb. Yalnız bir fakültə yazıb. Müsabiqə nəticəsində də ora daxil olmayıb. Bu həmin abituriyentlərin öz seçimidir. Əgər bu 3 abituriyent istəsə, ali təhsil almasını təmin etmək mümkündürmü?

**Dövlət İmtahan Mərkəzinin (DİM) mətbuat xidmətinin rəhbəri Xanlar Xanlarzadə** bildirdi ki, abituriyentlərin boş qalan yerlər üçün keçiriləcək müsabiqədə iştirak etmək hüququ var: "Burada kimisə günahlandırmaq lazım deyil. Bu abituriyentin öz seçimidir. Biz abituriyentlərə icazə vermişik ki, onlar 15-ə qədər ixtisasın kodunu öz ərizələrində göstərsinlər. Ancaq bu mütləq deyil ki, o 15-ə qədər ixtisasın kodunu yazmalıdır. Elə abituriyentlər var ki, doğrudan da onların aydın məqsədləri var. Yəni onlar qarşılarına məqsəd qoyurlar ki, biz filan ixtisasın dövlət sifarişi üzrə yerlərinə daxil olacağıq. Bu abituriyentlərin məqsədi bir ixtisasa qəbul olunmaqdır. Onlar ərizələrində yalnız həmin ixtisası göstərirlər. Yüksək bal toplayan bu abituriyentlərdə öz ərizələrində dövlət sifarişli yerləri yazıblar. Tutaq ki, orada bir abituriyent var Bakı Dövlət Universitetinin hüquq fakültəsini ödənişsiz əsaslarla yazıb, bir də Dövlət İdarəçilik Akademiyasını. Cəmi bu iki fakültəni yazıb və müsabiqə boş qalan plan yerləri müsabiqəsində iştirak edə bilərlər. Yəni bu abituriyentin hüququdur".

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev** bunların maddi problemlə bağlı olduğunu dedi: "Dövlət İmtahan Mərkəzinin abituriyentlərin düzgün seçim etmələri barədə maarifçilik işləri təqdirəlayiqdir. Nəşr və elektron versiyada kifayət qədər abituriyentlərə bilgilər verilir. Bəzi abituriyentlərin aydın istəkləri var. Yüksək bal toplayıbsa, istədiyi ödənişsiz ixtisasa düşməlidir. Yüksək bal toplayıb ali məktəblərə daxil olmamağın bir səbəbi düzgün olmayan kodlaşdırma ilə bağlıdırsa, digər səbəbi isə maddi problemlərlə bağlıdır. Yüksək bal toplayan abituriyentlər nəticələrinə uyğun daha çox risk edirlər. Riskləri azaldan isə maddi durum ola bilər. Yəni qeyd etdiyiniz balla abituriyentlər istədiyi ixtisasın ödənişli kodunu qeyd etsəydilər ali məktəblərə daxil ola bilərdilər. Təəssüflər olsun ki, həmin ixtisasların ödənişi həddindən artıq çoxdur. Və görsənir ki, həmin uşaqlar kasıb təbəqənin nümayəndələri olublar. Məncə bunu faciəyə çevirmək də lazım deyil. Bəlkə də müqayisə yersizdir. Ancaq maraqlı bir analogiyanı qeyd edim. Sovet vaxtı bizim nəslin abituriyentləri vuruldukları ixtisaslara daxil olmaq üçün illərlə ali məktəblərə ayaq döyürdülər. Maraqlıdır ki, həmin ixtisaslar indi yüksək bal toplayan abituriyentlərin ixtisasları ilə eynidir. Hüquq və tibb. Qəribədir ki, həmin illər qəbul prosesində haqsızlıqlar da olurdu, amma sarsıntı keçirən, intihar edən yox idi. O vaxt müəllimlərimiz də bizə dayaq dururdular. Bizlərə təskinlik verirdilər, ancaq indi təəssüflər olsun ki, belə deyil".

**E.Əliyev bildirdi ki, onlar növbəti ildə də yüksək nəticə göstərə bilər:** "Kənarda qalan abituriyentlər üçün biz də narahatçılıq keçiririk. Bir il geri düşmək gənclərin psixikasını pozmamalıdır. Onsuz da onlar topladıqları bala görə indi boş qalan yerlərin heç birini seçməyəcəklər. Bir məsələni də qeyd edim ki, son zamanlar abituriyentlərə düzgün yol göstərməyən, onların çaşdıran ekspertlər, xeyli sayda müəllimlər, kodlaşdırma "ustaları" peyda olub. Onlar uşaqları ixtisas seçməkdə dolaşdırırlar. Hər halda qabiliyyətli abituriyentlər Dövlət İmtahan Mərkəzinin maarifləndirmə prosesini düzgün əxz etsəydilər, səhvlərdən qaçmış olardılar".

❑ **Günel MANAFLI**

# Nə edirik və yaxud da nə etməliyik?..



**Hüseynbala SƏLİMOV**

**Nə qədər fərqli və yaxud təkrarsız olmağa çalışsaq da biz insanlar hamımız demək olar ki, eyni mərhələləri keçir və eyni halları yaşayırıq.**

Bəlli bir müddət keçəndən sonra hamı öz peşəsinin, ümumiyyətlə, məşğul olduğu sahənin "filosof"una çevrilir. Yeni nəsə etmək əvəzinə adamı daha çox "Necə etmək? Necə yazmaq? Necə oynamaq? Necə çəkmək?" kimi suallar məşğul etməyə başlayır.

Bu mənada jurnalistlər və jurnalistika da, hətta ictimai fəaliyyət də qətiyyən istisna deyildir. Elə bəndənizi də axır vaxtlar daha çox bu suallar ağuşuna alır - daha çox "filosofluq" etmək və siyasi jurnalistika, ictimai və siyasi fəaliyyət haqqında daha çox bir proses kimi danışmaq istəyirəm...

Bunun bir səbəbi də budur ki, müəyyən müddətdən sonra adam özünü peşəkar hiss etməyə başlayır, müəyyən qədər təcrübə topladığını güman edir və istər-istəməz onu bölüşməyə çalışır.

Lap elə yaxınlarda konkret olaraq peşəmizlə - jurnalistika ilə bağlı bir neçə yazı yazmışdım. İndi həmin yazılar bir-bir gəlib gözümün önündən keçir.

Daha nə demək olardı bu kontekstdə? Yadıma istər-istəməz bir nəfərin vaxtilə dediyi sözlər düşür. Deyirdi ki, biz dahi deyilik, ona görə də çox işləməliyik.

Bəli, milli jurnalistika sahəsində ən ali mükafat H.Zərdabinin payına düşdü. Ona görə ki, birinci oldu...

Fəqət, qəmlənməyə dəyməz. Biz də elə etməliyik ki, axırıncı olmayaq - bizdən sonra da yazanlar olsun... Bizə də ayrılan missiya da elə budur...

Elə bu sətirləri yazanda qəfil ağlıma gəldi ki, təkcə bizim jurnalistikaya aid deyildir bu, böhran və bir azacıq da tənəzzül yaşayan bütün sahələrə aiddir. Məsələn, toy musiqiçisinin heç ağlına da gəlmir ki, özündən sonrakılar haqda düşünsün, özünün axırıncı olub-olmaması haqda baş sındırsın - düşünür ki, toy həmişə olacaq, insanlar həmişə atılıb-düşmək istəyəcək və onun da "sənət"inin davamçıları tapılacaq!..

Elə orta statistik rüşvətxor məmurun da belə qayğısı yoxdur. O da düşünür ki, "az işləyib, saz qazanmaq istəyənlər" həmişə olacaq və yetər ki, dövlət qulluğu ciddi təbəddülatlara məruz qalmasın, onda həmin məmurun övladları da dərindən-qabıqdan çıxacaqlar ki, atalarının "iş"ini davam etdirsinlər...

Belə qayğıları, məsələn, daha çox alimlər yaşayırlar. Ona görə ki, nə qədər deyilsə də, nə qədər vədlər verilsə də, gənclər, xüsusən də oğlanlar elm dalınca getmək istəmir, çünki bunda böyük perspektiv görmürlər.

Bir az əvvəldə toy musiqiçisindən yazdım. Onlardan fərqli olaraq əsl böyük musiqinin təmsilçiləri daim bu qayğını yaşayırlar. Ona görə ki, əsl böyük sənət böyük də səbir və əzm tələb edir, gənclikdə isə adətən bu bir azacıq az olur - gənclik nəticələri tez görməyə tələsir...

Eyni sözləri jurnalistika və ictimai fəaliyyət haqqında demək mümkündür. Bəli, zahirən böyük qayğı ilə əhatə olunmuş kimi görünsə də, jurnalistikanın bu ölkədə davamlı olub-olmayacağına ümid yoxdur. Eyni sözləri, bir azacıq fərqli olsa da, ictimai və hətta siyasi fəaliyyət haqda da demək mümkündür - bir nəsil nəsə etməyə çalışdı və çox şeyə nail ola bilmədi...

Ona görə də istər-istəməz düşünürsən ki, görən, bunun davamı olacaqmı? Gələcək nəsillər demokratiya üçün nəsə edəcəkmi? Yoxsa onlar da "Nəyimə lazımdır?" və yaxud da "Onsuz da hamısı oyundur!" deyib kənara çəkiləcəklər?..

Əgər buralar da Latviya, Estoniya və Litva olsaydı adam elə bir narahatlıq yaşamazdı. Amma bura Şərqdir. Burada hələki heç nəyin əsl mexanizmi qurulmayıb. İnsanlar despotizmə, dözümsüzlüyə, qəddarlığa meyllidir. Hərə bunu öz çevrəsində etməyə çalışır və edir də...

Nəticədə də xırda bataqlıqlardan böyük bir bataqlıq yaranır. Və min təəssüf ki, biz də hələ "Burada da qanun və azadlıq olacaq, burada da insan insanı eşidəcək!" deyə bilmirik.

Ona görə ki, bu illər ərzində tək onu qazanmışıq ki, ölkə müstəqil olub. Amma hətta bu da ürəyimiz isətəyən qədər deyil - ətraf müstəqilliyimizin əleyhdarları ilə doludur, müstəqilliyimizi fədakarcasına qorumaq istəyən isə o qədər də çox deyil.

**Ona görə də rahatlıq tapmırsan, düşünürsən, necə edək ki, bizlər - demokratiya və müstəqillik naminə daim nəsə etmək istəyənlər axırıncı olmasınlar?..**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017



## "İsraillə dərin əməkdaşlıq Azərbaycan üçün böyük perspektivlər açar"

### Professor Saleh Məmmədov: "Dünyanın idarə edilməsində ciddi təsiri olan bir dövlətlə əlaqələr daha da genişləndirilməlidir"

**"Son zamanlar İsrail mətbuatında bu ölkə ilə yüksək səviyyədə formalaşmış dostluq münasibətlərinə xələl gətirə biləcək bir sıra materialların dərc olunması, onun geniş müzakirəsi, Milli Məclisin üzvü Yevda Abramovun "Yeni Musavat" qəzetinə müsahibəsi məni də yenidən bu mövzuya müraciət etməyə məcbur etdi". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında professor Saleh Məmmədov deyib. O, bildirib ki, İsraillə Azərbaycan arasında çox ciddi dostluq münasibətləri formalaşıb, hər iki ölkə üzrə rəhbərlikdə hansı partiyanın, qrupun olmasından asılı olmayaraq, bu münasibətlər davamlı, ardıcıl prinsiplərə əsaslanaraq heç bir mane olmadan davam edir: "Dünya miqyasında 200 ölkə içərisində bizim ölkəmizə ən yaxın və dost ölkələr içərisində birinci beşliyə daxil olan, hətta vacibliyinə görə ən mühüm yerdə duran dost ölkə İsraildir. Amma bu potensialdan nə dərəcədə yararlanmaq məsələsinə gəldikdə, bu səviyyə millət vəkilinin də dediyi kimi, yalnız təəssüf və məyusluq hissi doğurur. Belə bir ölkədə Azərbaycanın səfirliyinin olmaması heç bir məntiqə sıxmır.**

*Əvvəla*, İsrail dünyanın idarə olunmasında bəlkə də ABŞ qədər rol oynayan bir ölkədir. Dünyanın hansı ölkəsinə getsən, xüsusilə özəl çəkisi olan ölkələrdə, üst düzeydə dövlət idarəçiliyində İsrail əsilli şəxslərin üstün rolunu görmək olar. İdarəçilikdə və cəmiyyətlərin inkişafında əsas yeri elm və elm adamları tutur, dünya elminin hətta mən deyərdim ki, nəzarət paketi yəhudilərin əlindədi. Bir yəhudi alimdən soruşmuşdurlar ki, belə böyük təsirə malik olduğunuz halda nə üçün kiçicik İsraildə toplaşmısınız. Cavabında deyib: "yerləşdiyimiz məkan bütün Yer kürəsidi, İsrail isə bizim baş ofisimizdir". Bu, doğrudan da belədir.

*İkinci*, dünya maliyyə sistemi və maliyyə kapitalının ciddi təsirə malik hissəsi yəhudi əsilli şəxslərin əlindədi, dünya əhəmiyyətli əksər milyarderlər, güclü bankirlər, maliyyəçilər, kommersantlar da bu ölkə mənşəli insanlardır.

*Üçüncü*, İsrail bizə, ümumiyyətlə, bütün türklərə çox ciddi dostluq münasibəti olan bir ölkədi, bunun da ciddi əsası vardı. Yəhudilər bizdən fərqli olaraq tarixlərini çox gözəl öyrənirlər, bilirlər və buna uyğun olaraq dostlarını və düşmənlərini tanıyırlar. Türklər tarix boyu hər zaman ən çətin və ağır zamanında yəhudilərin yanında olmuşlar, hər an yardım etmişdilər, o cümlədən, 15-ci əsrdə yəhudilər İspaniyadan, 16-cı əsrdə digər Avropa ölkələrindən çıxarılanda və kütləvi qətl edilləndə də, II dünya müharibəsi zamanı alman faşistləri yəhudiləri kütləvi qıranda da, yəhudilər İranda, Rusiyada, Avropanın bir sıra digər ölkələrində sıxışdırılanda da. İsrail əhalisi Osmanlının tərkibində olarkən də, İsrail ərazilərinin ən inkişaf edən dövrü olmuşdur. Digər tərəfdən, tarixdə ən böyük yeri olan Türk dövlətlərindən birinin, Xəzər kaqanatının (bütün Azərbaycan əraziləri bu dövlətin tərkibində olmuşdur) rəsmi dövlət dini yəhudi dini olmuşdur, sonralar Avropaya yayılan, həmçinin İsrail dövlətinə köç edən yəhudilərin əksəriyyəti bizim soydaşlarımızdı, bu günə kimi də yəhudi dinində qalan türk soydaşlarımız - Karaim (karaylar) və Krımçaklar da yəhudi dininin daşıyıcılarıdı. Məhz buna görə də yəhudilər dünyanın hər yerində türkləri, xüsusilə də Azərbaycan türklərini müdafiə edirlər. Türklər də bu isti münasibətdən çəkinməməlidir, əksinə, bu xalqın sonsuz imkanlarından səmərəli istifadə etməlidirlər. İslam Konqresinin və ya hər hansı İslam cəmiyyətlərinin üzvü olmaq rəsmi beynəlxalq səviyyədə İsraillə münasibətlərdə heç bir məhdudiyyət nəzərdə tutmur, ərəblərə daha mülayim görsənmək üçün atılan addımlar tamamilə səmərəsizdir.

*Dördüncü*, İsrail dövləti özü böyük elmi, siyasi və iqtisadi potensiala malikdir. Elm sahəsində, kənd təsərrüfatının inkişafı, hərbi sənaye, dəqiq və fəza texnologiyalarında bu ölkə dünya birincisidi. Biz bu böyük potensialdan istifadə etməliyik".

**S.Məmmədov fikirlərini ümumiləşdirərək deyib:** "İsraildə səfirliyin açılması ilə bu ölkə ilə geniş əməkdaşlıq proqramının qəbul olunması, hər sahə üzrə, xüsusilə elm və təhsil üzrə bizə ciddi faydalar verərdi. İsraillə dərin əməkdaşlıq Azərbaycan üçün böyük perspektivlər açar. Bir vacib amili də nəzərə almaq lazımdır ki, İsrail demokratik bir ölkədir, Ermənistan və ya başqa ölkələrdən də diasporalar var, müxalif qüvvələr var, maraqlar toqquşa bilir, hər kəs sərbəst işləyir. Dövlət rəhbərliyinə daxil olan şəxslər, hətta prezident və ya baş nazir KİV-lərə göstəriş verə bilmir. İsrail və bu kimi digər dost ölkələrlə əməkdaşlığı qurularkən bu amillər nəzərə alınmalıdır".

❑ **Musavat.com**

# Yevda Abramovun müsahibəsi rezonans doğurub-deputatın dediklərinə reaksiyalar

**Milli Məclisin yəhudi əsilli deputatı, Azərbaycan-İsrail Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Yevda Abramovun "Yeni Müsavat"ın ötən sayında gedən müsahibəsi böyük maraq doğurub. Deputat müsahibəsində son zamanlar ermənilərin əli ilə İsrail mətbuatında Azərbaycan əleyhinə gedən yazılar və bu ölkədə səfirliyimizin açılmaması barədə sensasion açıqlamalar verib.**

**Deputatın əsas diqqətçəkən fikirləri bunlardır:** "Bu gün Azərbaycanda İsrailin səfiri var. Deməli, Azərbaycanda nə qədər İsrailin dostları varsa, o səfir onları özü ətrafında birləşdirib. Biz hər il İsrailin respublika günü olanda İsrail-Azərbaycan münasibətlərini alqışlayan insanları həmin bayram tədbirində görürük, üzlərindəki optimizmi, şadyanalığı müşahidə edirik. Biz də onlarla dostluq münasibətlərimizi qururuq, bilirik ki, o alim, o bəstəkar İsrailin apardığı düzgün siyasətin tərəfdarıdır. Bu gün Azərbaycanın İsraildə səfiri olsaydı, biz də bilərdik ki, Azərbaycanın keçmiş kontingentində Azərbaycana normal münasibət bəsləyən insanlar kimlərdir. Əgər orda bizim fövqələdə səfirimiz olsaydı, mən də həftədə iki dəfə danışardım, əlimdən gələn yardımı göstərərdim, oradakı insanlarla daha yaxşı təmaslar qurardım, həmçinin daha güclü diaspor təşkilatımızı yaradardıq".

**Deputat səfirliyin İsraildə açılacağı təqdirdə ölkələr arasında xırda, ürəkbulandıran hadisələrin baş verməyəcəyini söyləyib. O bildirib ki, Azərbaycanın İsraildə səfirliyi açılarsa, bu, iki ölkənin münasibətlərinin daha da genişlənməsinə və yaxşılaşmasına kömək edəcək:** "İsrail özünün Azərbaycan mədəniyyətinə, incəsənətinə, Azərbaycan xalqına simpatiyasına görə dünya ölkələri arasında öndə gedən bir ölkədir. Adam İsraildə darıxmır, İsrail Azərbaycan deməkdir. Birinci ona görə ki, İsraildə ərəb məscidləri sərbəst fəaliyyət göstərir, azanından tutmuş, müəyyən bayramlarına qədər. Özü də bu bayramlarda ortaqlıq da var. Hər yerdə azan səsi eşidirsən, orda adam elə bilir ki, Bakıdadır. Bu, dostluq münasibətləri üçün çox yaxşıdır. Amma çox təəssüf ki, hələlik beynəlxalq münasibətlər, Azərbaycan ətrafında gedən bir sıra məsələlər bizə cəsarətli, riskli addım atmağa imkan vermir. Səfirlik olarsa, əlbəttə, belə xırda-para məsələlərə səfirimiz özü reaksiya verər, orda mətbuat, televiziya jurnalistləri içərisində dostlar tapar, iş görər. İndiki halda bir dostluq qrupu nə edə bilər ki?".

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, Azərbaycanın İsraildə səfirliyinin olmaması artıq ölkəmizin milli və təhlükəsizlik maraqlarına ciddi zərər vurmağa başlayıb: "İsraildəki erməni lobbisi bundan öz məqsədləri üçün ciddi istifadə etməyə başlayıb. Bunun üzərinə ermənilərin dezinformasiya mexanizmini də əlavə etmək lazımdır. Son iki fakt da bundan xəbər verir. Birinci dəfə guya İsrailin məşhur "Haarets" qəzetinin saytında Azərbaycan prezidenti İlham Əliyevin və onun ailə üzvlərinin əleyhinə təhqiredici yazı yayımlandı. Buna cavab olaraq prezidentin köməkçisi Novruz Məmmədov sərt açıqlama verdi. Halbuki, sonradan dəqiqləşdirildi ki, "Haarets" qəzetinin saytında İlham Əliyev və onun ailəsinin əleyhinə heç bir yazı yayımlanmayıb. Sadəcə, saxta sayt vasitəsilə saxta yazı yayımlanıb və Azərbaycanın siyasi dairələrini buna inandırıblar. Bu cür saxtakarlığı Azərbaycan-İsrail əməkdaşlığını pozmaq istəyən qüvvələr həyata keçirə bilərdilər. Belə qüvvə isə bəllidir: Ermənistan hakimiyyəti və dünyadakı erməni lobbisi. Bu təxribatı da məhz onlar həyata keçiriblər. İkinci dəfə "Haarets" qəzetində belə bir məqalə dərc olundu ki, guya Azərbaycana silah satan İsrail şirkətini həmin silahdan Dağlıq Qarabağda erməni separatçılarıan qarşı istifadəyə məcbur ediblər və guya İsrailin Müdafiə Nazirliyi bu məsələni araşdırır. Budəfəki yazı saxta olmasa da, məqalədəki faktlar şübhə doğurur. Mümkündür ki, İsraildəki erməni lobbisi və onlarla əlaqəli olan qüvvələri İsrail-Azərbaycan əməkdaşlığını pozmaq üçün növbəti təxribata əl atıblar. Bu gedişlə İsrail-Azərbaycan münasibətlərinə qarşı təxribatların sayı artacaq. Bunun qarşısının alınmasının yeganə yolu Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlamasıdır. Məsələn, İsraildə Azərbaycanın səfirliyi fəaliyyət göstərsəydi, həm birinci dəfə "Haarets" qəzetində yayımlanan məqalənin saxta olduğunu anında üzə çıxarardı, həm də guya İsrail şirkətinin Azərbaycanda nəyəsə məcbur edildiyi məsələsinə aydınlıq gətirərdi. Ermənistan hakimiyyəti və erməni lobbisi Azərbaycanın İsraildə səfirliyinin olmamasından istifadə edərək, iki ölkə arasındakı əməkdaşlığı pozmaq üçün təxribatlarını bundan sonra da davam etdirəcəklər".





**Elxan Şahinoğlu:** "Rəsmi Bakı nəhayət ki, qərarını verməlidir"
**Fərəc Quliyev:** "Səfirlik İsraildə təcili şəkildə açılmalıdır"

**Politoloq Azərbaycanın qərar vermə zamanının olduğunu da qeyd etdi:** "Rəsmi Bakı nəhayət ki, qərarını verməlidir. İsraildə səfirliyin açılması məsələsində daima İran və ərəb ölkələri amilləri nəzərə alınarsa, onda Azərbaycanın gərək heç zaman İsraildə səfirliyi olmasın. Halbuki, Türkiyə və Qazaxıstan da müsəlman ölkələridir və İsraildə səfirlikləri var və nə İran, nə də ərəb ölkələri buna görə Ankaraya və ya Astanaya etirazlarını bildirmirlər. Azərbaycan strateji tərəfdaşları olan Türkiyə və Qazaxıstan nümunəsindən istifadə edərək, İsraildə səfirlik açılması prosesini sürətləndirməlidir. Buna qədər isə İsrailin siyasi dairələri Azərbaycanla əməkdaşlığı pozmaq istəyən qüvvələrə sərt üzünü göstərməlidir. Çünki İsrailin müsəlman ölkələri arasında tərəfdaşı onsuz da azdır. Azərbaycan tək-tük müsəlman ölkələrdəndir ki, İsraillə əməkdaşlığı strateji səviyyəyə qaldırıb. Ona görə də İsrail müsəlman aləmində dünyəvi Azərbaycanı itirməmək üçün münasibətləri pozmağa çalışan təxribatçılara qarşı özü də effektiv mübarizə aparmalıdır. Əks halda tərəfdaşlıqda həqiqətən çatlar əmələ gələcək, bu isə daha çox İsrail üçün ziyanlıdır. Biz yenə də silahı başqa ölkədən tapa bilərik, nefti də istədiyimiz ölkəyə sata bilərik. Bəs İsrail Azərbaycan kimi faydalı tərəfdaşını kiminlə əvəzləyəcək? Əgər düşünürlərsə ki, Ermənistanla dostlaşa bilər, bu "dostluq" Azərbaycan itkisinin yerini doldurmayacaq".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** həmkarının dediklərinə dəstək verdi: "Yəhudi xalqı Azərbaycan türkləri ilə çox yaxın münasibətdədir. Xüsusilə, Azərbaycandan köçüb gedən yəhudilər buradakı əhval-ruhiyyəni yaxşı bilirlər. Anlayırlar ki, onlara tolerant yanaşma var və Azərbaycan xalqı onları çox sevir. Məhz buna görə bizləri daim müdafiə edirlər. Təl Əviv-də AZİZ təşkilatının toplantısında bir dəfə iştirak etdim. Orada rusca toplantını aparmaq istədilər, amma yerdən hər kəs qışqırdı ki, Azərbaycan dilində aparılsın. Yəni bizə bu qədər sayğı ilə yanaşdılar. Azərbaycanın İsraillə münasibətləri çox dərindir. Bütün sahələrdə İsrail əlindən gələn köməyi bizə göstərib. İran, Ermənistan, eləcə də, Rusiya kimi dövlətlər əlbəttə istəmirlər ki, İsraillə yaxın münasibətlərimiz olsun. Bizim üzərimizə gələrlər də, həmin dövlətlərin ağızlarından vurmağı bacarmalıyıq ki, bu bizim daxili işimizdir. Təsəvvür edin ki, Ermənistanın İsraildə səfirliyi var, amma bizə gələndə bunlar hay-küy salırlar. Əgər onlar düşmənləri olan İsrailin burada səfirliyinin olmasına, bizim də orada səfirlik açmaq planımıza qısqanclıqla yanaşırlarsa, o zaman sual verə bilərik ki, o zaman Ermənistana nə üçün bu şəkildə yanaşmırsız? Düşünürəm ki, kimin nə deməyindən asılı olmayaraq, İsraillə münasibətləri ən yüksək səviyyədə qurmaq lazımdır. Həmkarım Abramovu tamamilə müdafiə edirəm. Səfirlik İsraildə təcili şəkildə açılmalıdır. Əgər yəhudilərlə ciddi şəkildə işləməsək, qarşı tərəf bundan istifadə edəcək".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# Müxalifət 2018 seçkilərinə hazırlaşırmı - siyasi liderlərdən önəmli açıqlamalar

**İqbal Ağazadə:** “Seçkiləri boykot etmək barədə düşünmürük”

**Tural Abbaslı:** “Bu seçkilər növbəti illərdə Azərbaycan siyasi səhnəsinin iştirakçılarının vitrinini müəyyən edəcək hadisə olacaq”

**Əli Əliyev:** “Mövcud reallıq müxalifətin birləşməsini tələb edir”

**Gələn il ölkəmizdə keçiriləcək prezident seçkilərinə 14 ay qalır. Zaman yaxınlaşdıqca seçki prosesindən dolayı siyasi çevrələrdə canlanma müşahidə olunur. Doğrudur, ötən il Azərbaycan Konstitusiyasına edilən əlavə və dəyişikliklərdən sonra seçkilərin vaxtından gec keçirilə biləcəyi barədə fikirlər az deyil.**

Amma əksər fikirlər seçkilərin vaxtında baş tutacağı ilə bağlıdır. Ölkə müxalifətinin hələ ki, seçkilərə ciddi hazırlığının şahidi olmasaq da, müxalif camiə daxilindən bu istiqamətdə səslənən fikirlərə rast gəlirik. Artıq bəzi siyasi qurumların rəhbərlərinin iddiaçı olacaqları məlum olmağa başlayıb. Yeni Azərbaycan Partiyasının namizədi artıq məlumdur. Hakim partiya seçkilərə hazırkı prezident İlham Əliyevlə gedəcək. MSDM rəhbəri İsa Qəmbər Müsavat Partiyasının 2014-cü ildə keçirilən qurultayının qərarı ilə qurumun namizədi elan olunub. Vətəndaş və İnkişaf Partiyası ötən ayın əvvəllərində ölkə rəhbərliyinə partiyanın sədri Əli Əliyevin namizədliyini irəli sürüb. Yeni AXCP də gələn ilki seçkilərə sədr Razi Nurullayevlə qatılacaq. Digər siyasi partiyalar da var ki, seçkilərə qatılacaqları gözlənilir.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** gələn aydan başlayaraq, rayon konfranslarını davam etdirəcəklərini söylədi: “Yay mövsümü ilə əlaqədar konfransları dayandırmışdıq. Gələn aydan davam edəcəyik. Konfranslarda biz artıq rəyi biləcəyik. Biz yerli təşkilatların, üzvlərimizin rəyini nəzərə almadan mövqe ifadə etmirik. Hər bir partiya zaman-zaman sadəcə seçkilərdə iştirak edir, biz də bu fürsətdən yararlanırıq. Yenə də yararlanmağa çalışacağıq. Amma rayon təşkilatlarının mövqeyi bizim üçün olduqca önəmlidir. Heç bir halda seçkiləri boykot etmək barədə düşünmürük”.

**AĞ Partiya başqanı Tural Abbaslı** partiyanın idarə heyətinin seçkilərdə iştirakla bağlı qərarının olduğunu qeyd etdi: “AĞ Partiya olaraq bizim idarə heyətinin əgər prezident seçkiləri nəzərdə tutulduğu kimi 2018-ci ildə keçirilərsə, öz namizədi ilə qatılmaq barədə qərarı var. Bu barədə partiya daxilində heç bir fikir ayrılığı yoxdur. Yəni biz düşünürük ki, hər bir seçki siyasi partiyalar üçün yeni siyasi imkanlar yaradır və partiyaların da işi bu imkanlardan istifadə edib, xalqın qarşısına çıxmaq, öz siyasi xəttini, ideologiyasını, baxışlarını onlara çatdırmaq və dövlət idarəçiliyində rol almaqdır. Ən azından bu yolla mövcud hakimiyyətlərə təzyiq edərək, onları bu və ya digər yöndə müxtəlif islahatlar keçirməyə məcbur etmək olur. Bizim üçün seçkilərə qatılmamaq və ya boykot etmək kimi variantlar mövcud deyil. Əminəm ki, biz planladığımız şəkildə bu seçkilərdə iştirak etsək, AĞ Partiya bu prosesdən kifayət qədər siyasi dividentlərlə çıxacaq və bu sonrakı mərhələlər üçün bizə platforma rolu oynayacaq. Bu yöndə hazırlıqlara biz artıq 2 aya yaxın müddətdir ki, start vermişik. Artıq seçkinin müxtəlif mərhələlərində iştirak edəcəkləri siyahıları, seçkinin ilk mərhələsindən başlayaraq son mərhələsinə qədər olan hissələrdə iş bölgüsü, seçki qanunvericiliyində nəzərdə tutulmuş hüquqi və texniki nüanslarla bağlı hərəkətlər planı və s. üzrə işlərimizi davam etdiririk. Təbii ki, Azərbaycandakı mövcud siyasi, iqtisadi durumu nəzərə alsaq bu işlərin yeni yaranmış və müxalif mövqedə olan bir siyasi partiya üçün nə qədər







ağır olduğunu təsəvvür etmək çətin olmaz. Ancaq biz hazırkı şəraiti nəzərə alaraq mövcud imkanlarla maksimum nəticə əldə etməyə çalışırıq. Hazırlıqlar çərçivəsində təbii ki, digər müttəfiq siyasi təşkilatlarla da əməkdaşlıq edir və məsləhətləşmələr aparırıq. Biz AĞ partiya olaraq, müxalifət partiyalarının əməkdaşlığının və səmimi münasibətlərinin tərəfdarıyıq. Amma biz qəti olaraq bu və ya digər mövzularda əməkdaşlıq və birlikdən yayınaraq, ancaq öz korporativ maraqlarını güdən təşkilatlarla əməkdaşlığın tərəfdarı deyilik. Hər şey qarşılıqlı və səmimi şəkildə olmalıdır. İnanıram ki, Allahın izni ilə bu işin öhdəsindən gələcəyik. Partiyamızın yeni olması, üzvlərimizin böyük əksəriyyətinin gənc, enerjili və ambisiyalı olması və ən əsası AĞ Partiya olaraq sahib olduğumuz ideoloji xəttimiz bizi digər siyasi partiyalar önündə güclü edən əsas amillərdir. Hələ ki, partiyada öz namizədindən başqa hansısa namizədin dəstəklənməsi məsələsi müzakirə olunmayıb və yaxın müddətdə də belə bir planımız yoxdur. Yuxarıda da qeyd etdiyim kimi, biz hər seçkini siyasi imkan kimi dəyərləndiririk. Odur ki, seçkilərdə müstəqil şəkildə öz namizədimizlə çıxış etməkdə daha maraqlıyıq. Partiya olaraq bizim üçün xalqın, dövlətin maraqları hər şeydən yüksəkdə dayanır. Yəni əgər biz görsək ki, xalqın və dövlətin maraqlarına görə hansısa namizədə güzəştə getmək lazımdır, o zaman bu müzakirə olunacaq və lazımı qərarlar veriləcək. Amma hələlik belə bir məsələ müzakirə olunmur. Düşünürəm ki, bu seçkilər növbəti illərdə Azərbaycan siyasi səhnəsinin iştirakçılarının vitrinini müəyyən edəcək hadisə olacaq”.

**VİP sədri Əli Əliyev** seçki hazırlıqlarından danışdı: “Namizədliyim barədə qərar partiyanın qurultay və məclis toplantısında qəbul edilib. Yəni qətidir. Bu səbəbdən bütün işlər seçkiyə indeksləşib. 2013-cü il təcrübəsi əsas götürülür. İndidən imzatoplama kampaniyasına cəlb ediləcək kontingent müəyyən edilir. Seçki kampaniyasının digər işləri görülür, o cümlədən şüar, təbliğat və təşviqat atributlarının hazırlığına başlanılıb. Bir sözlə, imkanımız daxilində çalışırıq. Bu bizim A variantımızdır. Fikrimizcə, fors-major baş verməsə, şərtlər xeyrimizə deyil. Bugünkü dəngə qorunsa, kampaniya tanıtımdan başqa mahiyyət daşımayacaq. Mövcud reallıq müxalifətin birləşməsini tələb edir. Biz məclis iclasında müzakirə zamanı qərarlaşmışıq ki, əgər qarşıdakı dövrdə daha rasional birlik və uğur formulu yaranarsa, o zaman mövqeyimizə yenidən baxa bilərik. Başqa namizədi deyil, platforma və ideyanı dəstəkləyə bilərik. Namizədin o halda personası rəmzi xarakter daşıya bilər”.

❑ **CAVANŞİR**

# ADP sədri ilə deputatın söz dueli

**ADP sədri Sərdar Cəlaloğlu ilə BQP rəhbəri, deputat Fazil Mustafa arasında günlərdir davam edən söz savaşı səngimək bilmir. ADP sədrinin tanınmış Azərbaycan şairləri Molla Pənah Vaqif və Səməd Vurğun haqqında dediyi sərt ittihamlara deputatın cavabı ilə başlayan narazılıq artan xətlə gedir. Hər iki partiya sədri bir-birilərinin fikirlərini sərt tənqid edirlər.**

Son olaraq, S.Cəlaloğlu hurriyet.org saytına geniş müsahibə verərək, F.Mustafanın bostanına daş atıb.

**ADP sədri Fazil Mustafa**nın “Qacarın Azərbaycanı birləşdirməməsi bizim xeyrimizə oldu” fikirlərinə bu cür cavab verib: “Mən bilmirəm Fazil Mustafa "biz" deyəndə kimi nəzərdə tutur, amma mən bir azərbaycanlı kimi deyirəm ki, Azərbaycanın bütöv şəkildə İranın tərkibində qalması və yaxud da bütöv şəkildə Rusiyanın tərkibində qalması bizim üçün daha əhəmiyyətlidir, nəinki bugünkü kimi parçalanmış vəziyyətdə olması. Bunun belə başa düşmək lazımdır. Yəni vətənin parçalanmasına heç bir ad altında haqq qazandırmaq olmaz. Bütün ölkə bir yerdə işğal oluna bilərdi. Azad olunanda da bir yerdə olacağdıq, necə ki, Şimali Azərbaycan azad oldu. Amma parçalanma bizə imkan vermədi ki, bir xalq olaraq tam şəkildə azad olaq. Elə təcrübə də göstərir ki, Fazil Mustafa yanlış deyir. Birinci, onun Qacar haqqında dediyi fikirlər yanlışdır. Sonra isə deyir ki, bizə torpaq lazım deyil. Torpaq olmazsa, xalq necə ola bilər? Xalq özü torpaq və qan birliyi deməkdir. Etnoqrafiya elmi də xalq haqqında belə bir tərif verib ki, xalq ərazi birliyi və qan birliyində olan insan kütləsi deməkdir. Əgər bizə yalnız qan birliyi lazımdırsa, yalnız qan birliyi ilə tayfa yarana bilər, xalq, millət yarana bilməz. Millət şüur birliyi, xalq qan və ərazi birliyi, tayfa qan birliyindən yaranır. Hörmətli Fazil bəy isə deyir ki, ərazi birliyinin bizim üçün önəmi yoxdur. Məhz ərazimizin parçalanmasına görə biz hələ də vahid Azərbaycan xalqı kimi formalaşa bilməmişik.



**Sərdar Cəlaloğlu:** “Fazil Mustafa yanlış deyir”



**Fazil Mustafa:** “Sərdar bəyin mühakimələri çoxlu nöqsanlarla doludur”

**F.Mustafa “Yeni Müsavat”da S.Cəlaloğlunun barəsində dediklərinə bu cür münasibət sərgiləyib:** “Bu cür müzakirələrin aparılmasına müsbət yanaşıram. Əslində cəmiyyətimizin buna çox ehtiyacı var. Sərdar bəyin ”Abbas Mirzə Azərbaycanı birləşdirəcəyi halda daha mütərəqqi yol gedəcəkdik" kimi fikirlərə gəlincə, bunu tarixin inkişaf mərhələlərinə baxanda diqqətlə görürsən ki, bu inandırıcı gəlmir. Azərbaycanın yeni dünyaya açılımı hətta Osmanlı vasitəsilə olsa belə mümkün deyildi. Bunun özü də böyük problemlər yaradırdı. Çünki Türkiyənin özü Osmanlı sisteminin içərisində Avropa məkanından uzaq düşdü və təzminat dövrünü 150 illik sürəcdə keçməyə məcbur oldu. Bu onu göstərir ki, rus mühitinin açılımı ilə Azərbaycanın belə bir şəraiti yarandı və Avropa dəyərlərinə yaxınlaşmağımız baş verdi. Qacarın ingilis, fransız dillərinə bilməsinə gəlincə, Oksford kimi universitetlər bitirmiş dövlət başçıları var idi ki, onlar adam əti yeyirdilər. Onların dil bilmələri adam əti yeməl期nə əngəl olmurdu. Ona görə də kiminsə hansısa dili bilməsi, əzbərləməsi o dövrün mütərəqqi adamı olması anlamına gəlmirdi. Ona görə də bu məsələnin arqument olaraq əsas ola bilməz. Biz Qacarın mollaxana açacağını ona görə deyirik ki, Güney Azərbaycan nümunəsini görürük. Sonunda İran İslam Respublikasının qurulması bir mollaxana sisteminin bərqərar olmasının nümunəsi idi. Azərbaycanda Qori Müəllimlər Seminariyası nəticəsində ziyalı nəslinin yetişməsi Müstəqil Azərbaycan dövlətinin qurulması üçün bir zəmin hazırladı. Biz şərt yox, fakt formasında danışırıq. Bu gün bəlkə də biz Avropa dəyərlərinə, müasir dünyaya daha tez qovuşa bilərdik, rus mühiti də bizi xeyli geri saldı. Amma istənilən halda həyatımızda bu mühitin yüksək rol oynadığı danılmazdır. Səfəvilər və digərlərindən daha çox rol oynayıb. Ən azından İran modelli bir dövlətə çevrilmədik. Modern dünyəvi bir dövlət qurmaq imkanı əldə etdik. Lokal, milli təəssübkeşlikdən çıxış etmək hamı üçün məqbul hesab oluna bilər. O zamanlar Qarabağ xanı İbrahimxəlil xanın daha realist yanaşması və Rusiya, İran arasındakı seçimdən daha doğrusunu seçməsi bu gün Azərbaycanın seçdiyi yolun təməlini qoydu. Sərdar bəyin bu məsələlərdəki mühakimələri çoxlu nöqsanlarla doludur. Yanaşma tərzi də doğru deyil. Amma onun axtarışlarına müsbət yanaşıram. Tənqid edə bilər, amma əsası odur ki, kimlərisə təhqir etmədən fikirləri irəli sürürsə, bunun cəmiyyətə faydası ola bilər. Belə müzakirələr nəticəsində faydalı olan irsimizi, kökümüzü tapırıq. Nəyi kənara tullamağın lazım gəldiyini bunların nəticəsində anlayırıq. Düşünürəm ki, Səfəvilər və Qacar dövrü bizlərin fəxr edəsi dövr deyil. Əslində geriliyimizə səbəb olan dövrlərdir. Tariximizdə çoxlu qaranlıqlar var".

**F.Mustafa İran və Rusiya əsarətində qalan Cənubi və Şimalı Azərbaycanı da müqayisə etdi:** “O zaman ya hamımız bir xəstəliyin içərisində qalaraq sıradan çıxmalı idik, ya da müəyyən bir hissəmiz azad olunmalı idi. 3/1-mizin rus mühiti daxilində bütöv bir xəstəlikdən qurtulmağımız xeyrimizə olan bir hadisədir. İran mühitində son 200 ildə yetişən obrazlarla Güneydə yetişən obrazları müqayisə edərək göstərmək istəyirəm. Üzeyir Hacıbəyov, Məhəmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Xudu Məmmədovun timsalında orada hansısa bir kadrın yetişməməsi göstərir ki, sovet dövründə qazandıqlarımız daha fərqlidir. Deməli olar tərəzinin gözü boş qalır. Bu gün İranda hələ də 30 milyondan çox azərbaycanlı dilinin tanınması üçün mübarizə aparır, maddi imkanları da normaldır, Sərdar bəyin dediyi kimi ingilis və fransız dillərini bilirlər, amma nə olsun, ortaya qoyduqlar performans nədir. Say etibarı ilə qat-qat çox olan bir cəmiyyəti ondan az olan cəmiyyət necə əzə bilər? Deməli çatışmayan şeylər çoxdur. Görün İranda bir Axundov yetişsəydi, nələr dəyişə bilərdi. Daha mütərəqqi bir mühit yaranmazdımı? Rusiyanın tərkibində olaraq, sonradan 9 milyonluq xalqın müstəqil dövləti ola bilər. Amma 30 milyonluq xalq bunu əldə edə bilməz. Biz bu reallıqları deyirik”.

❑ **C.ABBASLI**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# "Vurulmuş" Mahmudovlar yenidən "dirçəlir"-səbəb

## İlham İsmayıl: "Onun oğlunun hansısa biznesini inkişaf etdirməsi heç də təəccüblü deyil"

**Ləğv olunmuş milli təhlükəsizlik nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovun oğlu Anar Mahmudov ailə biznesini genişləndirməkdədir. Oğul Mahmudovun idarə etdiyi "Caspian Crystal" LLC şirkəti ilə Fransanın məşhur armanyak (konyakın bir növü, Fransanın Armanyak bölgəsində yetişdirilən xüsusi üzüm sortlarından hazırlanır) içkisi istehsal edən "Chateau de Bordeneuve" şirkəti müqavilə bağlayıb. Müqaviləyə əsasən bu şirkətin istehsal etdiyi armanyak Azərbaycanda "Caspian Crystal" şirkəti tərəfindən satılacaq. Virtualaz.org xəbər verir ki, bu haqda Fransa şirkətinin yaydığı press-relizdə bildirilir. Orada qeyd olunur ki, "Caspian Crystal" Bakıda mənzillənən, 12 mərtəbəli plazaya, üç ticarət nöqtəsinə, iki şərab anbarına və güclü anbar-paylama şəbəkəsinə malik olan şirkətdir. Chateaux Bordeneuve & Collections şirkətinin kommersiya direktoru Jerom Kastedine bildirib ki, bu sövdələşmə nəticəsində "Collection Privee" və "Baron de Sigognac" markalı armanyak beynəlxalq arenada daha çox tanınacaq, prestij qazanacaq.**



"Bizim məhsulların yüksək keyfiyyətini, qüsursuz, beynəlxalq və peşəkar imicini nəzərə alaraq biz əminik ki, uzunmüddətli və davamlı tərəfdaşlığa başlayırıq. Mən "Caspian Crystal" şirkətinə daha çox uğurlar arzu edirəm və onlara qəti özünəinamlarına görə təşəkkür bildirirəm"-direktor əlavə edib. Fransız konyaklarının Azərbaycanda satışını təşkil etmək üçün müqavilə bağlayan "Caspian Crystal" şirkəti keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun ailə biznesinə daxildir. Bu holdinqi keçmiş nazirin oğlu Anar Mahmudov idarə edirdi. "Caspian Cyristal" şirkəti Azərbaycanda dünyanın hər bir yerindən gətirilmiş eksklüziv şərablar və alkoqollu içkilər təklif edən ilk butikin - "Wine City"nin yaradıcısıdır. Hazırda Bakıda bu adla 3 butik fəaliyyət göstərir. "Wine City" mağazasında 18 min şüşənin saxlanıldığı şərab anbarı qurulub. Şərab butikinin layihəsi və dizaynı fransızlarla birgə hazırlanıb. Bu şərablar elit müəssisələrə təqdim edilir və VİP müştərilər üçün nəzərdə tutulub. Habelə "Caspian Crystal" şirkəti 2008-ci ildən etibarən lüks qədəhlər istehsalçısı "Riedel Crystal" şirkətinin Azərbaycanda rəsmi distribütorudur. "Caspian Crystal" şirkətinin fəaliyyətinin bir istiqaməti Avropanın ən yaxşı istehsalçılarından eksklüziv qida məhsullarının idxalıdır. 2007-ci ildə şirkət öz ərzaq bazasını yaradıb və "Gastronomy" pərakəndə və topdansatış üzrə ilk mağazasını açıb.

Hazırda "Gastronomy-1, "Gastronomy-2? və "Gastronomy-3? mağazaları fəaliyyət göstərir. Öz fəaliyyətinə restoran biznesi ilə başlayan "Caspian Crystal" - "Beluga", "Salvador Dali", "Lord", "VİP", "Velluto" və "Crystal Shikhovo" kimi dəbdəbəli restoranlar şəbəkəsi yaradıb. "Caspian Crystal" şirkəti müəssisə və təşkilatların əməkdaşlarının qida ilə təmin olunmasının təşkili üzrə podrat xidmətlərinin göstərilməsi üzrə də ixtisaslaşıb. Azərbaycanda "Range Rover", "Jaquar", "Maserati" avtomobillərinin və "Dicati" motosikletlərinin rəsmi təmsilçisi olan "Crystal Motors" şirkəti də "Caspian Crystal" holdinqə bağlıdır. "Caspian Crystal"ın baş ofisi Bakıda Yusif Səfərov küçəsində "Caspian Crystal" plazada yerləşir.



Xatırladaq ki, Eldar Mahmudovun işdən çıxarılmasından və onun MTN-dəki mütəşəkkil qruplaşmasının zərərsizləşdirilməsindən sonra "Caspian Crystal" şirkətinin də fəaliyyətini dayandırdığı haqda məlumatlar gəlirdi. Lakin daha sonra məlum oldu ki, şirkət işləyir və onun tərkibinə daxil olan müəssisələr fəaliyyətini davam etdirir. Bəs şirkət hələ də Eldar Mahmudovun oğluna məxsusdurmu? Yoxsa Azərbaycan bazarına elit alkoqollar, elit qədəhlər, "Range Rover"lər və s. idxal edən şirkət hazırda başqa əllərə keçib?

Virtualaz.org bu suallarla şirkətin ofisinə zəng vurub, Anar Mahmudovun hələ də bu şirkətə rəhbərlik edib-etmədiyi ilə maraqlanıb. Telefon zənginə cavab verən əməkdaş bu suala cavab vermək istəməyib, "bizdə rəhbərlik və şirkətin sahibləri barədə hər hansı informasiyalar məxfidir" deyib. Eyni zamanda şirkətlə maraqlanıldığından təəccübləndiklərini də gizlətməyiblər.

Oğul Mahmudovun Fransa şirkəti ilə müqavilə bağlaması ictimai rəydə birmənalı qarşılanmayıb. Bunu Eldar Mahmudovun dirçəlməsi, yenidən meydana qayıtması kimi qəbul edənlərlə yanaşı sabiq nazirə görə oğluna qarşı addımların atılmamasından narazılıqlarını bildirənlər də var.

Anar Mahmudovun biznesi atasına görə əlindən alınmalı idimi? A.Mahmudov atasına, onun hərəkətlərinə cavabdehlik daşıya bilərmi?

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl** deyir ki, Azərbaycan daha çox yazılmış qanunlarla deyil, yazılmamış qanunlarla idarə olunur: "Hüquqi baxımdan yanaşanda Eldar Mahmudovun oğlunun biznesini davam etdirməsində heç bir problem yoxdur. Oğul atasına cavabdeh deyil, oğul azad və hüquqi bir dövlətdə biznesini davam etdirir. Yazılmamış qanunlara görə Eldar Mahmudov necə azadlıqdadırsa, onun oğlu da həmin formada biznesini genişləndirir. Eldar Mahmudovun MTN-də baş verən cinayətlərdə nazir kimi dolayı və birbaşa əli olduğu bilinən cinayətlər haqda çoxsaylı məlumatlar var. Amma Eldar Mahmudov heç bir məsuliyyətə cəlb olunmur. Bu adamı qoruyurlar. Onun oğlunun hansısa biznesini inkişaf etdirməsi, qoruması, fəaliyyətini davam etdirməsi heç də təəccüblü deyil.

Düzdür, ölkədə başqa praktika hökmrandır. Kimsə "vurulursa" onun bütün əmlakları, qohum-qardaşının əmlakları əllərindən alınır, bank hesabları, mal-mülklərinə əl qoyulur. "Vurulanın" çoxsaylı qohum-qardaşı vəzifələrdən çıxarılır, təqib olunur. Eldar Mahmudova münasibət isə fərqlidir. Onunla bağlı proses başqa xətlə inkişaf edir. Ata ilə bağlı proses necə inkişaf edirsə, oğlu ilə bağlı da o yöndə davam edir".

**İ.İsmayıl deyir ki, kimsə E.Mahmudovun yaxın perspektivdə məsuliyyətə cəlb olunacağını gözləməsin**: "Barəsindəki xüsusi qərardad da məsləhət xarakterli idi. Məhkəmə elan edir ki, bu materialların əsasında məsləhətdir ki, cinayət işi başlansın. İttiham tərəfi bunu rədd də edə bilər, necə ki, indiyə qədər edir. Göründüyü kimi ittiham tərəfi bundan uzaqdır, Eldar Mahmudovun barəsində hər hansı bir addım atmır. Bunu edə bilmir, etmək istəmir göz önündədir. Hüquqi nəticəsi olmayan addımların atılması da E.Mahmudov üçün heç nə vəd etmir".

**İ.İsmayıl deyir ki, hakimiyyətin E.Mahmudovla bağlı perspektiv planları var:** "Bu planların gerçəkləşməsi üçün Eldar Mahmudovun azadlıqda olması vacibdir. Onun oğlunun biznesinin inkişaf etdirməsi də bu planlara mənfi təsir etmir və bu baxımdan ona kimsə də mane olmur. Eldar Mahmudovla söhbət bəzi maliyyələrin geri qaytarılması istiqamətində gedir. Necə ki, başqaları ilə, eyni qaydada Eldar Mahmudovla da iş aparılır".

**İ.İsmayıl hesab edir ki, E.Mahmudovla aparılan işin üzərindən vəzifəyə qaytarılması mümkün deyil**: "Eldar Mahmudovun vəzifəyə qoyulması hakimiyyətə zərər gətirər. Düzdür, Azərbaycanda ictimai rəylə əksərən hesablaşmırlar. İctimai rəy bunu Eldar Mahmudovun qələbəsi kimi qəbul edər. Yəni onu vəzifəyə qoymazlar. Digər tərəfdən Eldar Mahmudovunu özü də vəzifəyə təyin olunmasını istəməz. Onun ən böyük vəzifəsi azadlıqda olmasıdır".

❑ **E.MƏMMƏDƏLİYEV**



## Prokuror Akif Çovdarova 15 il cəza istədi

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi avqustun 16-da davam edib.**

Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.

Prokuror Akif Çovdarova cəza tələb edib. Dövlət ittihamçısı A.Çovdarovun 15 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

Dövlət ittihamçısı MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədovun 12 il tələb edib.

Prokuror MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanovun isə Cinayət Məcəlləsinin 62-ci (daha yüngül cəza təyin edilməsi) maddəsi tətbiq edilməklə 9 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Bundan başqa dövlət ittihamçısı Akif Çovdarov və digərlərinin rütbələrinin alınmasını da məhkəmədən tələb edib.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# Dağlıq Qarabağ - danışıqlar və müharibə: son durum

## Qarabağı "ildırımsürətli müharibə" ilə azad etmək olar; **polkovnik Şair Ramaldanov**a görə, bu gün 100 km-lik dərinliyi azad etmək üçün 5 gün də bəs edər...

**Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün qarşıdakı aylarda baş tutacağı barədə verilən açıqlamalar çox keçmədi ki, təkzib edildi. Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan da bu günlərdə belə bir görüşün yeri və vaxtı ilə bağlı konkret məlumatın olmadığını bildirdi.**

Əslində İrəvanın tutduğu aqressiv mövqe danışıqların bərpasının belə fayda verməyəcəyinə şübhə yeri qoymur. Realliq bundan ibarətdir ki, Ermənistan ötən ilin aprel döyüşlərindən sonra danışıqları birtərəfli qaydada dayandırıb. Düzdür, işğalçı Rusiyanın diktəsi ilə təşkil olunan danışıqlarda iştirakdan imtinaya cəsarət etməyib. Lakin ötən il iki, bu il isə bir - yenə də Kremlin arbitrliyi ilə - görüşü çıxmaq şərtilə, sonrakı təşəbbüslərə İrəvandan rədd cavabı verilib. İndi isə nəzərlər BMT Baş Assambleyansına yönəlib. Güman olunur ki, assambleya çərçivəsində tərəfləri heç olmasa XİN başçıları səviyyəsində bir araya gətirmək mümkün olacaq. ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Riçard Hoqland da bu barədə danışmışdı. Diplomatın "biz yeni hərbi toqquşmaların ehtimalını azaltmalıyıq. İlk növbədə təmas xəttindən snayperlər götürülməli, beynəlxalq nəzarətçilərin sayını artırmalı və izləyici cihazlar yerləşdirməliyik" açıqlamasından belə aydın olur ki, həmsədrlərin niyyəti status-kvonun qorunub saxlanmasıdır. Hansı ki, bu vəziyyətin olduqca təhlükəli olduğunu elə böyük güclər də dəfələrlə bəyan edib.

Deməli, indiki vəziyyətdə masaya Azərbaycan üçün ideal sayılacaq həll variantının qoyulmasından söhbət gedə bilməz. Belə olan təqdirdə torpaqların azadlığına Azərbaycan beynəlxalq qanunlara uyğun şəkildə özü qərar verməli olacaq.

Əslində Azərbaycanın öz ərazilərini işğalçılardan təmizləməsi üçün yetərincə imkanları var, bunu beynəlxalq təşkilatların hesabatlarında Azərbaycan ordusunun ön sıralarda qərarlaşması da təsdiqləyir. Üstəlik, orduda xidmətdən imtina edən erməni cəmiyyətindən fərqli olaraq, Azərbaycan xalqı son damla qanına qədər Qarabağın azadlığı uğrunda döyüşlərə hazır olduğunu dəfələrlə sübuta yetirib. Azərbaycan ictimai rəyi əmindir ki, Azərbaycan ordusu Ali Baş Komandanın əmri ilə savaşa başlasa, qısa müddətdə torpaqlarımızdakı düşməni əzib-keçəcək.

İki gün əvvəl Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən baş nazirin birinci müavini Yaqub Eyyubov və müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu zonada mövcud olan vəziyyətlə yerində tanış olmaq məqsədilə ön xətdə yerləşən bölmələrdə olması da düşmənə ciddi xəbərdarlıq sayıla bilər.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Aydın Mirzəzadə** Modern.az-a bildirib ki, baş nazirin birinci müavini Yaqub Eyyubov və müdafiə naziri Zakir Həsənovun cəbhə xəttinə səfər etməsi Azərbaycanın Silahlı Qüvvələrinin döyüş hazırlığının gücləndirilməsi istiqamətində görülən tədbirlərdən biridir.



"Azərbaycan müharibə vəziyyətindədir. Ermənistan isə işğal etdiyi ərazilərdən çəkilmək fikrində deyil. Ona görə də problemin həlli üçün hər zaman hərb variantı daima gündəlikdədir. Ötənilki aprel hadisələri göstərdi ki, Azərbaycan bu gün düşmən ölkədən hərb sahəsində bütün parametrlərdə üstünlüyə malikdir. Ermənistan Azərbaycanın döyüş hazırlığından özü üçün bir nəticə çıxartmalıdır. Azərbaycan əbədi olaraq torpaqlarının işğal altında qalmasına dözməli deyil. Bu məsələ ölkə başçısının, cəmiyyətin və dövlətin daima diqqət mərkəzindədir. Biz problemin sülh yolu ilə həll olunmasında maraqlıyıq və bunun üçün maksimum səylər göstəririk. Amma Ermənistan bilməlidir ki, Azərbaycan Silahlı Qüvvələri ən müasir silahlarla silahlanmaqla, döyüş hazırlığı yüksək olmaqla və hazırlığına dövlət tərəfindən diqqət yetirməklə hər an bu torpaqları hərb yolla azad etməyə hazırdır. Bununla belə Ermənistana yenə də şans verilir. Azərbaycanın sülh yolu ilə torpaqlarını azad etməkdə bütün fəaliyyəti şəffafdır".

**A.Mirzəzadə deyib ki, Yaqub Eyyubovla Zakir Həsənovun cəbhəyə hərbi formada səfər etməsi onu göstərir ki, hamı əsgərdir:** "Hətta Azərbaycan prezidenti İlham Əliyev də cəbhə xəttinə səfər edərkən hərbi formada olur. Dünənki səfər Silahlı Qüvvələrin döyüş hazırlığı və döyüş bölgəsinə yaxın yaşayış məntəqələrində yaşayan sakinlərin problemlərinin həlli üçün vacibdir. Ermənistan ordusunun vaxtaşırı həmin yerləri atəşə tutması nəticəsində dağıntıların aradan qaldırılması, insanların təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi məqsədi daşıyır". **Deputat bildirib ki, bu səfər Ermənistana ciddi mesajdır:** "Bu, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmək üçün beynəlxalq hüququn verdiyi bütün imkanlardan istifadə etdiyini bir daha sübut edir".

***

"Əgər son durumu analiz etsək, həm dövlət başçılarının, həm dövlət qurumlarının, həm də hərbi dairələrinin leksikonunda əlbəttə ki, daha çox güc variantı ilə bağlı ab-hava daha çox üstünlük təşkil edir. Danışıqların bərpasına cəhdləri daha çox beynəlxalq qurumlar istəyir. Bu, heç də Azərbaycan və Ermənistanın cəhdləri kimi qiymətləndirilə bilməz".

Bunu isə Horadiz əməliyyatının rəhbəri, **ehtiyatda olan polkovnik Şair Ramaldanov** "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert dedi ki, aprel döyüşlərindən sonra Ermənistan artıq iç üzünü tam göstərib: "Həmin döyüşlərdən sonra İrəvanın mövqeyi onu göstərdi ki, bu ölkə heç vaxt sülh yolu ilə torpaqları azad etməyəcək. Yəni bu məsələ ilə bağlı suallara artıq aprel döyüşlərindən sonra birmənalı cavab aldıq. O döyüşlərdən sonra Ermənistan birmənalı şəkildə sülh danışıqlarından uzaqlaşdı və heç bir danışıqlara getməyəcəyini bəyan etdi. Həmçinin bəyan etdi ki, Azərbaycan aprel döyüşləri zamanı azad etdiyi torpaqları azad etməyənə qədər Ermənistan danışıqlara qatılmayacaq.



Bundan başqa, hər iki-üç aydan bir bəyan etdilər ki, biz həmin torpaqları ya yenidən işğal edəcəyik, ya da əvəzində Azərbaycanın başqa ərazilərini ələ keçirəcəyik. Hətta bu istiqamətdə bəyanatlarla yanaşı, konkret cəhdlər də oldu, düşmənin təxribat-diversiya qrupları çox fəal şəkildə hərəkətə keçdi. Amma Azərbaycan ordusu bu cəhdlərin qarşısını ala bildi. Ermənistan ordusu itkilər verəndən sonra isə artıq erməni cəmiyyəti ayağa qaxdı, ölkədə əsgər anaları dəfələrlə Müdafiə Nazirliyinin binası qarşısında piketlər keçirdilər, bundan sonra isə cəbhədə gərginlik nisbətən səngidi".

**Lakin Ş.Ramaldanov işğalçının özünün mənfur niyyətlərindən əl çəkmədiyini digər faktlarla konkretləşdirdi:** "Bu hadisələrdən sonra Ermənistan Suriya qaçqınlarından muzdlu döyüşçü kimi cəbhədə istifadə etməyə başladı. Bütün bunlar onu göstərir Ermənistan sülh yolundan imtina yolunu seçib. Biz Ermənistan ordusunun vəziyyətini bilirik. Digər tərəfdən, Ermənistan cəmiyyəti dəfələrə tələb edib ki, onların uşaqlarının başqa ölkənin ərazisində xidmət etməsinə son qoyulsun. Erməni ailələri müxtəlif yollarla öz uşaqlarını əsgərlikdən yayındırırlar. Əsas məsələ budur ki, erməni gəncləri gedib Qarabağda xidmət etmək istəmir. Hətta hərbçilərə 10 min dollar vəd olunsa da, vəziyyət dəyişmədi. Yəni işğalçı ölkədə hərbi çağırışçılarla vəziyyət gərgin olaraq qalır. Bu ordu daha çox öz havadarlarına, ilk növbədə Rusiyaya arxalanır".

**Amma polkovnik torpaqların azqad olunmasının alternativini görmür:** "Bugünkü vəziyyəti qiymətləndirəndə belə bir nəticə çıxarırıq ki, Ermənistan sülh yolu ilə həll variantına, Azərbaycanın təkliflərinə razı olmayacaqsa, Azərbaycanın güc yolu ilə torpaqlarını azad etməkdən başqa çıxış yolu qalmayacaq". **Rusiya və ya başqa faktorlara gəldikdə, ekspert bunları bildirdi:** "Birincisi, bizim Rusiya ilə çox yaxın münasibətlərimiz var, strateji tərəfdaşımızdır. Amma biz 10 gün - 2 həftəyə torpaqların işğaldan azad olunması tapşırığını yerinə yetiməliyik. Bu tapşırığı yerinə yetirsək, Rusiya faktoru minimuma enəcək. Lakin bu məsələ uzansa, Rusiya faktoru da, digər faktorlar da işə qarışacaq. Çünki Qarabağ məsələsində bir sıra beynəlxalq qüvvələrin ciddi maraqları var. O qüvvələr zamin durublar ki, məsələ ancaq sülh yolu ilə həllini tapacaq. Ancaq reallıq bundan ibarətdir ki, məsələnin sülh yolu ilə həlli imkanları tükənib. Ermənistan torpaqları azad etmək istəmir, Azərbaycan isə öz ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyini bəyan edir. Deməli, Azərbaycanın yeganə çıxış yolu budur ki, öz sözünü desin. Cənab prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə həm hərbçilərlə görüşlərdə, həm də müxtəlif tədbirlərdəki çıxışlarında öz fikrini deyib. Şərait özü artıq buna gətirib çıxarır ki, Azərbaycan güc variantını seçməli olacaq. Əks təqdirdə biz Rusiya faktorunu nəzərə alıb nə qədər gözləyəcəyik? Artıq 23 il keçib".

**Peşəkar hərbçi öz təcrübəsindən konkret misal çəkdi:** "1994-cü il Horadiz əməliyyatında o istiqamətdə 4 ay düşmən müdafiə işlərini həyata keçirmişdi, istehkamlar qurmuşdu, yəni müdafiə işləri bütün tələblərə uyğun təşkil olunmuşdu. Ancaq Azərbaycan ordusu 2 gün ərzində 23 yaşayış məntəqəsini, işğal olunmuş ərazilərin 27 km-lik dərinliyini azad etdi. 94-cü ildə aparılan əməliyyatı günlərə bölsək, görərik ki, indi də qısa zamanda bu tapşırığı yerinə yetirə bilərik. O zaman da Rusiya faktoru var idi, ancaq Azərbaycan ordusu qarşıya qoyulan vəzifənin öhdəsindən layiqincə gəldi. Biz o vaxt 2 gün ərzində 27 km dərinliyə doğru irəliləyə bilmişiksə, deməli, bu gün də Azərbaycan ordusu öz sözünü deməyə qadirdir. Bu gün işğal olunmuş ərazilərdə ən dərin istiqamət 100 km-ə yaxındır, günlərə böləndə məlum olur ki, bizim torpaqları azad etməyimimiz üçün neçə gün lazımdır".

**Horadiz təcrübəsi göstərir ki, Azərbaycan qısa müddətdə düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir. Xatırladaq ki, Horadiz əməliyyatı həyata keçiriləndə Azərbaycanın müstəqil ordusu hələ formalaşmamışdı, silah-sursat problemi yaşanırdı. Bu gün isə 26 yaşlı Azərbaycan ordusu ən müasir silahlarla, hərbi texnika ilə təchiz olunub. Deməli, Qarabağı işğaldan azad etmək üçün "ildırımsürətli müharibə" üçün 5 gün də kifayət edər. Hər halda cənab Ramaldanovun rəhbərliyi ilə həyata keçirilən Horadiz əməliyyatı bunu deməyə əsas verir...**

❑ **Elşad PAŞASOY**

# "Turan"da islahatlar



Zamin HACI
zaminhaci@gmail.com

**Kerenski haqda yazı oxuyurdum təzəlikcə. Rusiyada 1917-ci ildəki Müvəqqəti Hökumətin şefi, sən demə, 1970-ci illərə qədər hələ sağ imiş, ABŞ-da yaşayırmış. Onun ölüm xəbəri çıxanda Sovet İttifaqında çoxları təəccüblənibmiş. Mənim indi təəccübləndiyim kimi. Sovet camaatı da Kerenskinin çoxdan öldüyünü zənn edirmiş.**

O yazıda bir məşhur məsələyə də toxunulmuşdu. Yəqin hər bir homo sovetikusun yadında olar, bizə tarix dərsində öyrədilirdi ki, Kerenski Qış sarayından qaçanda bolşeviklərin əlinə keçməsin deyə qadın paltarı geyinibmiş. Guya bu yolla Kerenskini ələ salır, lağ edirdik. Ancaq yalan imiş. Kerenski 1960-cı illərdə Amerikada bir məclisdə sovet jurnalisti Henrix Boroviki yaxalayıb deyir ki, o yalanı bəsdir tirajladınız, mən ümumiyyətlə qaçmamışam, sarayı avtomobillə tərk etmişəm.

Bunu yazmaqda məqsədim tarixi eşələmək deyil. Sadəcə, dünən xəbər lentində "Turan" informasiya agentliyinin bağlanmaq təhlükəsi qarşısında qaldığını, vergi orqanlarının (ya da hansısa başqa hüquq-mühafizə orqanı idi - dəqiq yadımda deyil, həm də bunun önəmi varmı başı nə ilə kəsirsən?) orada yoxlamalara başladığı, agentliyin sənədlərini yığıb apardığını oxuyanda ağlıma gələn ilk cümlə bu cür oldu: "Bəyəm "Turan" hələ açıq imiş..."

Səmimi, şişirtmədən söyləyirəm, doğrudan da elə bilirdim "Turan"ı çoxdan bağlayıblar. Bu təəssüratın yaranmasında agentliyin bülletenlərinin yalnız pullu abunə yoluyla yayılması, hər kəsə açıq saytının-filanının olmaması da rolunu oynayıb. Biz jurnalistlər və oxucular "Turan"ın xəbərləri, analizləri ilə adətən mətbuat səhifələrində tanış olardıq. İndi söz azadlığı qalmadığı üçün görünür agentliyin xəbərini yayan da yoxdur. Daha bağlanmaq necə olur? Necə deyərlər, tısbağanı ya öldür, ya tərsinə çevir...

Ola bilsin "Turan"ın abunəçiləri arasında xaricilər, iri neft şirkətləri, səfirliklər-filan hələ qalır. Ancaq bundan mənə nə? Biz Azərbaycan vətəndaşlarını bizim üçün xəbər yayan agentlik maraqlandırır.

"Turan" isə Azərbaycanın müstəqillik dövrünün yanılmıramsa, elə ilk müstəqil informasiya agentliyi idi. Ona təzyiqlər, bu hala salınması acınacaqlıdır. Ancaq biz hansı müstəqillikdən dəm vururuq ki? Bizdə bir məşhur siyahı var: 1991-ci ildə deputatxanada Azərbaycanın müstəqilliyi səsə qoyulanda bunun əleyhinə səs verənlərin adbaad siyahısı. Hər dəfə ölkədə nəsə axmaq bir iş törəyəndə, hansısa qalmaqallı cinayət olanda adamlar dərhal o siyahıya baxırlar və heç vaxt da yanılmırlar: həmin hərəkətdə adı hallanan məmurun o vaxt müstəqilliyimiz əleyhinə səs verdiyi ortaya çıxır! Son "Gəlindəbəvaqon" qəzasında adı hallanan məmurun da müstəqillik əleyhinə səs verdiyi məlumdur. Ta bunun nəyi müstəqillikdir? Əleyhinə səs verdiyin müstəqillikdə baş nazirin müavini olursan... "Nə gözəl İstambul bə" - Çakır demişkən... Əleyhinə səs verənlər, onu istəməyənlər müstəqillik uğrunda savaşanlardan və həlak olanların qohumlarından yaxşı yaşayırsa, elə müstəqilliyin... (Hər kəs ürəyindən keçəni nöqtələrin yerinə qoya bilər).

"Turan" informasiya agentliyinin əbədi, daimi və dönməz rəhbəri, hamımızın əziz dostu Mehman Əliyev isə öz optimizmi, nikbinliyi ilə tanınır. Bəlkə 20 ildir biz Mehman müəllimdən belə açıqlamalar eşidirik: "Az qalıb, hakimiyyət islahata gedəcək", "Bu seçkidən sonra yenilənmə qaçılmazdır" və sairə. Özü də biri var bunu hansısa ehtimal şəklində deyəsən, biri də var administrasiyada əmr, sərəncam və fərmanları gözüylə görüb gəlmiş adam kimi. Mehman müəllimdə ikincisi olurdu. O boyda optimist islahatların axırında "Turan"ın bağlanması heç yaxşı olmadı. Bəs indi islahat xəbərlərini kimdən eşidək? Ümid edək, islahat nəhayət, başlasın və "Turan" açıq qalsın. Yoxsa biabır olacağıq.

**Bu məqamda yadıma bir lətifə düşdü, həm də Mehman müəllimin 1980-ci illərdə sularda xilasedici işləməsinə uyğun bilib yazıram. Deyir, bir gəmi həkimi varmış, həmişə matroslara suyun min bir dərdin dərmanı olmasından danışarmış. Bir gün həkim göyərtədə gəzəndə sürüşüb dənizə düşür, başlayır batmağa. Matroslardan biri deyir: "He-he, baxın, həkim öz dərmanında boğulur".**

# Rusiya nəşri: "Ermənistan riskli oyuna girib, özünü dalana salıb"

**İşğalçı Ermənistan Rusiyanın regionda yeganə hərbi forpostu ola-ola son vaxtlar Qərbə, NATO-ya reveranslar eləməsi, Avropa Birliyin ilə saziş imzalamağa hazırlaşması artıq siyasi təhlilçilərin əsas diqqət verdiyi mövzulardan birinə çevrilib. Rəsmi Moskva İrəvanın bu kimi gedişlərinə hələlik susqunluq göstərsə də, gözlənildiyi kimi, ən azından Rusiyanın ekspert dairələrində məsələ sürətlə gündəmə daşınmaqdadır.**




## "Moskva İrəvanı Qarabağla cəzalandıracaq" - sensasion gözlənti

### İrəvanın xarici siyasətdə iki və daha çox "stulda oturmaq" siyasəti ona baha başa gələ bilər - şimaldan hədə gəldi; Rusiya baş naziri düşmən ölkəyə gedir; Medvedyev nankor müttəfiqə hansı mesajı aparır?..

Ortaq qənaət belədir ki, xüsusən də Rusiya ilə ABŞ, NATO arasında münasibətlərin sürətlə gərginləşməyə üz tutduğu indiki dönəmdə cırtdan Ermənistan faktiki surətdə Kremli güclü şəkildə qıcıqlandırmaqla olduqca riskli bir oyun oynayır. O üzdən İrəvanın bu qəbildən şıltaqlıqlarına, daha doğrusu, nankorluğuna Moskvanın cavabının kifayət qədər sərt və qeyri-proporsional ola biləcəyi vurğulanır.

***

**Rusiyanın tanınmış Rosbalt nəşrində dünən bu mövzuda dərc olunmuş analitik məqalə diqqət çəkir. Musavat.com-un məlumatına görə, məqalədə deyilir:** "Ermənistanda az qala, hamı Rusiya ilə ABŞ arasında seçim problemini müzakirə edir. Parlament mühitində ölkənin ən azı, Avrasiya İqtisadi Birliyi və KTMT-dən çıxmaq çağırışları səslənir. Xalqın (elə hakimiyyətin də) içində isə anti-Rusiya və anti-İran sanksiyalarının respublikaya təsirindən panik şəkildə qorxurlar və nəfəslərini içəri çəkərək, Ermənistanın NATO ilə indiyədək görünməmiş yaxınlığını müzakirə edirlər".

**Məqalə müəllifinə görə, Ermənistanın həssas mövqeyini başa düşmək əslində mümkündür:** "Bu ölkə Rusiyanın strateji müttəfiqi ola-ola, təkcə Moskva ilə deyil, İran və Avropa Birliyi ilə, NATO ilə də əlaqələr qurmağa çalışır. Belə bir siyasət özünü hardasa doğruldub, ancaq indi o, bir çox səbəblərdən təhlükə altındadır. Birincisi, Rusiya öz "müttəfiqinə" münasibətdə ciddi səhvlərə yol verib ki, bu da İrəvana incik pozası tutmağa və yeni "dostlar" axtarmağa (Moskvanı şantaj elementləri ilə birgə) imkan yaradıb. İkincisi, Kremlin Qərblə konfrontasiyası elə bir yüksək səviyyəyə çatıb ki, Ermənistan xarici siyasətdə iki və daha çox "stulda oturmaq" müyəssər olmayacaq.

Bu arada İrəvana həm Qərb, həm də Rusiya təzyiq göstərir. Və belə bir şəraitdə, KTMT-nin üzvü ola-ola, Azərbaycanla həll olunmamış münaqişə yaşaya-yaşaya Ermənistanın ağlına məhz ABŞ və NATO ilə sürətlə yaxınlaşma tövrü göstərmək gəlib. Rusiyalı politoloq Qriqori Trofimçuk bu yerdə haqlıdır deyəndə ki, Cənubi Qafqazın problemi zonalarında vəziyyət daha çox "Rusiya-Amerika balansı"ndan asılıdır".

**Məqalədə daha sonra deyilir:** "Ermənistanın Rusiyaya qarşı sanksiyalar sarıdan narahatlığı boşuna deyil. İki qüdrətli dövlətin Ermənistan kontekstində məntiqi tamamilə fərqlidir. Amma nəticə birdir və Ermənistan üçün ağırdır - hansı nəticə ki, İrəvanın onsuz da kasad imkanlarını daha da daraldacaq. Beləcə, Ermənistan özünü dalana salıb".

**Rusiya nəşri ardınca Ermənistanın Avropa Birliyi ilə payızda çərçivə sazişi imzalamağa hazırlaşdığını yada salaraq yazır:** "Bu sazişin məzmunu açıqlanmır. Hələ ki Ermənistan Rusiyaya düşmən blok olan NATO-nun təlimlərində addımlayırkən - o Rusiya ki, hələlik Bakıya öz qonşusunu məhv edib, işğal altındakı əraziləri geri qaytarmağa izn vermir - Azərbaycan Rusiyanın öz müdafiə naziri Zakir Həsənovun timsalında jurnalistlərə bəyan edir ki (nazirin son Moskva səfəri nəzərdə tutulur -red.), Bakı Rusiya ilə hərbi-texniki əməkdaşlığı hərtərəfli genişləndirmək niyyətindədir. Azərbaycanlı nazir həmçinin, bu yaxınlarda Xəzər dənizində Rusiya ilə birgə hərbi təlimlərin keçirildiyini yada salıb. Onu da deyib ki, hazırda çoxlu sayda azərbaycanlı zabit və kursantlar Rusiyanın ali hərbi məktəblərində təhsil alır, Azərbaycan ordusunun sərəncamında isə çoxlu Rusiya hərbi texnikası var".

**Məqalə deyilir:** "Belə görünür ki, Ermənistan bu kimi "xəbərdarlıqları" eşitmək istəmir. Hərgah, Dağlıq Qarabağ ətrafında olduqca mürəkkəb qüvvələr balansı formalaşıb. Söhbət həm də Qarabağ məsələsində Azərbaycan maraqlarının lobbiçisi olan Türkiyə ilə Rusiyanın təzədən "dostlaşmasından" gedir. İkinci tərəfdən, Moskva öz nizamlama variantını həyata keçirməyə çalışır. Həmin varianta görə, öncə Azərbaycana Ermənistanın işğalı altında olan 7 rayondan 5-i qaytarılır - hansına ki, İrəvan müqavimət göstərir, hərçənd, başqa bir həll yolu ona böyük itkilər hesabına başa gələ bilər. Üçüncüsü, hazırda Azərbaycan Rusiyanın gözündə daha etibarlı tərəfdaşdır, nəinki öz xarici siyasət oriyentasiyasında sürüşkən olan və Moskva çoxlu iradlar irəli sürən Ermənistan".

**Müəllifin qənaətincə, Ermənistanın bu oyunu olduqca risklidir:** "Ona görə ki Rusiya şantaj xoşlamır. Bu üzdən Kreml olduqca sərt, hətta qeyri-proporsional cavab verə bilər. Yəqin ki, bu xüsusda Ermənistan üçün "ev tapşırığı" da artıq hazırlanıb - əgər İrəvan öz oyunları ilə daha uzağa gedib çıxsa. O zaman Ermənistandan nə qalacaq? NATO və ABŞ ona kömək etməyəcək, onlar Ermənistan uğrunda vuruşası da olmayacaqlar - burası dəqiqdir. Həmçinin KTMT-nin türkdilli dövlətləri və Belarus də qarışmayacaq. Hələ ki Rusiya xeyli dərəcədə onun özü tərəfindən yaradılan bu situasiyaya dözür. Kəsəsi, Ermənistan getdikcə daha "cəsarətli" olur. Amma çətin ki, onun bunca "tərifə layiq" davranışını Moskva əlində İrəvana qarşı bunca ciddi kozır saxlayan Qarabağ kartı (erməni-Azərbaycan qarşıdurması) ola-ola cavabsız qoysun. Yəni əsas Ermənistanın təhlükəsizliyidir - nəyin uğrunda ki, Qərb öz əsgərlərinin qanını tökməyəcək, İrəvanın Avropa və ABŞ-la, NATO ilə əlaqələri nə qədər "xoşməramlı" olsa belə. Bütövlükdə istər Amerika sanksiyaları olsun, istərsə də olmasın, Ermənistan Moskvadan sonuncunun icazə verdiyi məsafədən uzağa getmək imkanından uzun müddətə məhrumdur".

Məqalənin sonunda Rusiya baş naziri Dmitri Medvedyevin Ermənistana səfərə hazırlaşdığı anons edilib. Ən maraqlısı da yeqin elə budur, Görəsən, baş nazir İrəvanın nankor hakimiyyətinə hansı ayıldıcı mesajı aparacaq? Qarabağ ətrafındakı situasiyaya da bu səfərdən sonra əhəmiyyətli aydınlıq gələ bilər.

**Əlavə edək ki, Medvedyevin Bakıya da səfər edəcəyi barədə məlumat verilmir.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# Rusiya Moldovanı qarışdırmaq istəyir

## Şahin Cəfərli: "Cəbhə xətti" bizim ölkəmizdən keçməsə də, sərhədlərimizdən keçir və bu mübarizənin nəticələrinin Azərbaycana təsirləri qaçılmaz olacaq"

**"Moldova strateji seçimini etmiş və avroatlantik inteqrasiya yolunda olan bir dövlətdir. Bu ölkə 2014-cü ilin iyununda Avropa Birliyi ilə assosiasiya sazişi imzalayıb və bu saziş 2016-cı ilin iyulun 1-dən qüvvəyə minib. Moldova hazırda Avropa Birliyinin (AB) üzvü olan Baltik ölkələrindən sonra AB ilə vizasız rejimə keçən ilk keçmiş sovet respublikasıdır".**

**Politoloq Şahin Cəfərli** bu fikirləri son zamanlar Moldova ətrafında yaranmış vəziyyəti "Yeni Müsavat"a şərh edərkən bildirdi. Qeyd edək ki, bu ölkədə Rusiyaya yaxınlığı ilə seçilən prezident İqor Dodonla Qərbə inteqrasiya siyasətinə tərəfdar olan hökumət arasında konfliktlər mövcuddur. Elə Rusiyanın baş nazirinin müavini Roqozin ətrafında baş verən son hadisələrin əsas günahkarı olaraq da Moldova hökuməti göstərilirdi. Bu mənada Kremli qəzəbləndirən hadisəyə, Roqozinin təyyarəsinin separatçı Dnestryanıya enməsinə imkan vermədiyinə görə Moldova hökumətinin cəzalandırılacağı şübhə doğurmur.

**Vəziyyəti təhlil edən Ş.Cəfərli xatırlatdı ki, Moldova NATO ilə də yaxından əməkdaşlıq edir:** "Ötən ilin noyabrında Moldovada NATO-nun əlaqə bürosunun açılması barədə saziş imzalanıb. Büronun payızda açılışı gözlənilir və bu, NATO-Moldova əlaqələrinin inkişafında yeni mərhələ olacaq. Bu əməkdaşlıq çərçivəsində ABŞ-ın Moldova ərazisində, Bulboaka qəsəbəsində hərbi baza qurmaq planları var. Bulboaka hazırda Rusiya hərbi kontingentinin mövcud olduğu Dnestryanı ərazinin yaxınlığında yerləşir və separatçıların inzibati mərkəzi Tiraspol şəhərindən cəmi 30 km aralıdadır. Məqsəd yaxın gələcəkdə Rusiyanı oradan öz qoşunlarını çıxarmağa məcbur etməkdir. Dnestryanı ərazi Moldovanın digər hissəsi ilə Ukraynanın arasında yerləşir və oradakı Rusiya kontingenti hazırda logistika imkanlarından məhrum şəkildə faktiki blokada vəziyyətindədir". Ekspertə görə, bu baxımdan Moldovanın bəxtinin gətirdiyini söyləyə bilərik, çünki ərazisində münaqişə zonası olsa da, bu ərazinin və ümumilikdə Moldova dövlətinin özünün Rusiya ilə sərhədi yoxdur: "Bu, çox böyük üstünlükdür. Lakin Moldovanın başqa bir dərdi var. Ölkənin başlıca problemi toplumun əsasən ideoloji-dini səbəblərlə bölünməsidir. Moldova əhalisinin mütləq əksəriyyəti xristianlığın pravoslav qoluna mənsubdur. Bilirsiniz ki, pravoslavlığın əsas mərkəzlərindən və himayəçilərindən biri məhz rus kilsəsidir. Bu durum ölkə əhalisinin təxminən yarısının, o cümlədən qaqauz türklərinin Rusiyaya meyllənməsini şərtləndirən amillərdən biridir. Bu bölünmə təbii olaraq Moldova siyasətində inikasını tapır, ölkədə keçirilən seçkilərdə kiçik üstünlüklə gah qərbyönlü liberallar, gah da Rusiya meylli sol qüvvələr qalib gəlir".

**Ş.Cəfərli rusiyameyilli prezidentlə Qərb yönümlü hökumət arasındakı rəqabətdən də bəhs etdi:** "Son parlament seçkilərində liberal partiyalar qalib gələrək koalisiya hökuməti qurublar. Lakin ötən il keçirilən prezident seçkilərində sosialistlərin namizədi İqor Dodon qalib gəldi. Bunun nəticəsində indi ölkədə Krılovun məşhur təmsilinə bənzər



paradoksal bir vəziyyət yaranıb: hökumət üzünü Qərbə tərəf, prezident isə Rusiyaya tərəf tutub. İqor Dodon avroatlantik inteqrasiyanın əleyhdarıdır və bu istiqamətdə indiyədək əldə olunmuş nailiyyətləri yox etməyə, prosesi dayandırmağa çalışır. O, ölkənin müşahidəçi qismində də olsa, Avrasiya İttifaqında iştirakını istəyir. Lakin Moldova parlamentli respublika olduğu üçün icra səlahiyyətləri hökumətdədir, bu səbəblə Dodon hələ ki öz proqramını reallaşdıra bilmir. Növbəti parlament seçkiləri 2 geosiyasi vektorun tərəfdarları arasında çox gərgin mübarizəyə səhnə olacaq. Rusiya şübhəsiz ki, İqor Dodonun mövqeyindən və təşəbbüslərindən məmnundur".

**Bu arada Moldovada Ukraynadakı kimi Maydan hadisələrinin yaşanacağı, inqilabın baş verəcəyi təxminləri səslənir. Ş.Cəfərli qeyd etdi ki, gələn il keçiriləcək parlament seçkiləri ərəfəsində Moskva Moldovanın sol qüvvələrinə dəstəyini artıraraq onların hökuməti formalaşdırmaq üçün çoxluq əldə etməsinə çalışacaq:** "Əgər bu baş verərsə və rusmeylli hökumət ölkəni avroatlantik inteqrasiyadan geri döndərməyə çalışarsa, Maydan hadisələri Moldovada təkrarlana bilər. Çünki əhalinin passionar hissəsi, gənclər, təhsilli insanlar avrointeqrasiyanı dəstəkləyir. Paytaxt Kişinyov əhalisinin əksəriyyətinin də bu mövqedə olması rusiyameylli qüvvələrin işini çətinləşdirən əsas amildir".

**Reallıq bundan ibarətdir ki, Rusiya Qərbin sərt sanksiyalarına postsovet məkanını hissə-hissə ələ keçirməklə, bölgədə dominantlığını bərqərar etməklə cavab verir. Ukrayna hadisələri, Krımın ilhaqı, Donbasda yeni dövlət yaratmaq cəhdlərinin ardınca Moldova hökumətini də cəzalandırmaq istəyi təbii ki, sonuncu olmayacaq. Kremlin ən ciddi planları həm də Qafqaz regionu ilə bağlıdır. Bu mənada bəzi müşahidəçilər Bakının perspektivdə təklənmək təhlükəsindən sığortalanması üçün strateji seçim etməsini, ya Qərblə bir yerdə olmasını, ya da Moskvanın ürəyincə olan layihədə yer almasını çıxış yolu olaraq görürlər. Hesab olunur ki, artıq Qoşulmayanlar Hərəkatına üzvlük öz mənasını itirib seçim etmək zamanıdır. Postsovet məkanında Rusiya ilə Qərb arasında gedən geosiyasi qarşıdurmanın Azərbaycana mümkün təsirlərinə gəldikdə, Ş.Cəfərli qeyd etdi ki, rəsmi Bakı hər zaman olduğu kimi, indi də bu qarşıdurmadan uzaq durmağa çalışır:** "Azərbaycan iqtidarı ənənəvi balans siyasətinə sadiqdir və tərəflərdən birini seçməyə soyuq baxır, bu tip təklifləri qəbul etmir. Təbii ki, geosiyasi cəbhələşmənin əks qütbləri başqa ölkələri də öz sıralarına cəlb etmək istəyindədir. Xüsusən Rusiya Azərbaycanın Avrasiya İttifaqına qoşulmasına çox isti baxdığını gizlətmir və dəfələrlə bunu dilə gətirib. Hətta son vaxtlar Azərbaycana şimaldan edilən təzyiqlərin əsas səbəbinin Bakının Moskvanın bu gözləntilərinə cavab verməməsindən qaynaqlandığını düşünürəm. Həlelik geosiyasi mübarizənin "cəbhə xətti" bilavasitə Azərbaycandan keçmir. Tərəflərin Azərbaycanın qarşısında qəti strateji seçim tələbi qoyub-qoymadığı barədə məlumatımız yoxdur. Lakin "cəbhə xətti" bizim ölkəmizdən keçməsə də, sərhədlərimizdən keçir və bu mübarizənin nəticələrinin Azərbaycana təsirləri qaçılmaz olacaq".

❑ **E.PAŞASOY**

# Bir ovuc düyü, "ovucdakı Qarabağ" və ovçunun ovcunda qalanlar



**Xalid KAZIMLI**

**Bir neçə gün öncə yazıçı-publisist Əlikamal Həsənzadə kiçik bir yazı yazmış və maraqlı bir video paylaşmışdı. Video Hindistanda meymun (söhbət pəzəvəng qorilladan yox, makaka tipli kiçik meymunlardan gedir) ovlanmasından bəhs edir. Lentdən görünür ki, ovçu böyük bir ağacın gövdəsini oyur, bir meymun əli girəcək qədər oyuq açır və oraya düyü, dən, yeməli bir şeylər töküb, aralanır.**

Meymun cəld ağacdan enir, pəncəsini oyuğa salır, ovcunu yeməli şeylərlə doldurur, oyuqdan çıxarmaq istəyəndə, təbii ki, yumulub yumruğa dönmüş pəncə oyuqdan çıxmır. Ovçu yaxınlaşır. Meymun görür ki, ovçu onu ənsələyəcək, özünü göyə qaldırır, yerə çırpır, fəqət heç cür ovcunu açıb dəni buraxmır ki, pəncəsi oyuqdan çıxsın. Nəticədə ovçu onu tutub aparır - yəqin ki, zooparklara satmağa.

Kənardan baxanda qəribə görünür. Axı digər heyvanlarla müqayisədə meymunun müəyyən "intellektual" potensialı var, oğurluq edə, siqaret çəkə, velosiped sürə, geyinib-soyuna, butulkanın qapağını açıb su içə bilir, bəs nədən şüuru kəsmir ki, pəncəsini oyuqdan çıxarıb qaçmasa tutulacaq?

Pəncəsi oyuqda ikən çırpınmasından görünür ki, meymun bunu anlayır, tutulacağını bilir və qorxur, amma ovcunda xışmaladığı dəni, düyünü buraxmaq istəmir. Yəni meymunun tamahkarlığı, acgözlüyü olub-qalan şüurunu elə dumanlandırır ki, ovcundakılardan vaz keçməsinə, özünü ovçunun ovcuna düşməkdən xilas etməsinə bəs etmir.

Yazıçı-publisist Əlikamal Həsənzadə bu mənzərəni usta şəkildə ermənilərin Qarabağ münaqişəsində tutduqları şüursuz mövqeyə proyeksiya etmişdi.

Gerçəkdən də ermənilər hərc-mərclikdən və sovet-rus qoşunlarının dəstəyindən istifadə edərək tutduqları Qarabağı ovuclarında elə bərk-bərk xışmalayıblar və elə ehtirasla əllərində saxlayırlar ki, böyük ovçuların ovcuna düşdüklərini fərq etmirlər. Nəticədə Rusiya Ermənistanı öz quberniyalarından birinə, məsələn, Həştərxana çevirib.

ABŞ və Fransa da Ermənistana məhz ermənilərin Qarabağ məsələsindəki həssasiyyətlərini nəzərə alaraq yanaşırlar, erməniləri ələ almaq, özlərinə daha da yaxınlaşdırmaq üçün onlara "ovucdakı Qarabağ"dan vaz keçmək çağırışı etmirlər.

İndi Azərbaycan da 95-100 il (hətta 27 il) əvvəlki Azərbaycan deyil, özünü müdafiə edəcək, gövdəsini qoruya biləcək gücə malikdir və ermənilərə, eləcə də onların qüdrətli havadarlarına müqavimət göstərir, Qarabağı vermir. Bu üzdəndir ki, ermənilər xışmaladıqları Qarabağı götürüb pəncələrini münaqişə oyuğundan çıxara bilmirlər və 25 ildir ki, çabalaya-çabalaya qalıblar.

Bu, ermənilərin təkcə qüdrətli pəncələrin ovcuna düşməsinə, dövlət müstəqilliklərini itirmələrinə səbəb olmayıb. Ümumilikdə, Qarabağı heç cür özününkü edə bilməyən Ermənistan çox şey itirir: regional layihələrdən kənarda qalır, dövlət büdcəsinin mühüm hissəsini işğal etdikləri torpaqlarda ordu saxlamağa sərf edir, iki yaxın qonşusu (Türkiyə və Azərbaycan) ilə ticarət dövriyyəsi aça, milyonlar qazana bilmir və sair və ilaxır.

Əgər Ermənistan Qarabağı ovcundan vaxtında buraxsaydı, hətta onu heç qamarlamağa çalışmasaydı, bu gün regionun ən inkişaf etmiş ölkələrindən biri olardı. O zaman Bakı-Ceyhan neft kəməri Ermənistandan keçərdi (bu daha sərfəli marşrut idi), Bakı-Qars dəmiryol xətti də Tiflisdən, Borjomidən dolanmazdı, Ermənistandan keçməklə qat-qat az məsrəflə və qat-qat qısa müddətə Türkiyənin dəmiryol xəttinə birləşərdi. Nəticədə Ermənistan bu meqa-layihələrdən öz payını götürər, böyük bir ticarət dövriyyəsinə qoşular, böyük maliyyə vəsaiti qazanar, çiçəklənərdi.

Eyni fikri Ermənistanın turizm potensialı üçün də demək olar. Hələ sovet vaxtı hər il minlərlə qarabağlı Ermənistandakı Cermuk kurortunda dincələrdi. İndi Cermuka kimlər gəlir ki? 3-5 yüz nəfər. Ancaq iki xalq arasında sülh olsaydı, sovet dövründəki mehribanlıq qalsaydı, bu gün hər iki dövlət turizmdən yüz milyonlarla pul qazana bilərdi. Təkcə Qarabağın səfalı guşələri, müalicəvi suları keçmiş SSRİ məkanından yüz minlərlə turisti cəlb edə bilərdi.

... Fəqət bəs Hindistandakı meymun nə etdi? Bir ovuc düyüyə, dənə görə pəncəsini koğuşa saldı və onu əlindən heç cür buraxmaq istəmədi deyə peysərindən yapışıb apardılar qəfəsə salmağa.

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

**"ABŞ prezidenti Donald Tramp eyni zamanda bir neçə dövlətlə mübarizə aparır. Bu isə gələcəkdə onun özünün problemlərini artıra bilər. Çünki Trampa qarşı Amerikanın özündə də güclü müxalifət var və onlar Ağ Ev sahibinin səhvindən öz məqsədləri üçün istifadə edəcəklər".**



# ABŞ-ın Rusiyaya qarşı sanksiyaları İranla yanaşı, Azərbaycana da təsir edə bilər

## Politoloq: "Azərbaycanın Amerika ilə yaxşı münasibətləri də Tehranla Moskvanı qıcıqlandıracaq"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Ekspertin sözlərinə görə, ABŞ Konqresinun qəbul etdiyi qanunda "şər üçbucağına" Rusiya və Şimali Koreya ilə yanaşı, İranı da əlavə etməsi gələcəkdə Azərbaycana müəyyən problemlər yaradacaq: "Birincisi, Rusiya-İran ittifaqı heç zaman Azərbaycanın xeyrinə olmayıb. Əslində İrandakı siyasi və dini dairələrin heç vaxt Rusiyaya inamları olmayıb, ancaq Rusiya hakimiyyətinin anti-Qərb siyasəti və son illər Moskvanın Suriya rejiminə verdiyi dəstək Tehranın istər-istəməz yenidən Rusiya ilə əlaqələri genişləndirməyə, tərəfdaşlığı artırmağa sövq edib. ABŞ-ın yeni sanksiyaları isə bu ikiliyi yenidən zorən müttəfiqlərə çevirəcək. Bu isə o deməkdir ki, Rusiya və İran Cənubi Qafqaz və Qarabağ münaqişəsinin həllinə baxışda da eyni prizmadan yanaşacaqlar. İkincisi, Konqresin və ABŞ prezidenti Donald Trampın anti-İran siyasəti eyni ilə İranda anti-amerikan əhval-ruhiyyəsini gücləndirəcək və İrandakı dairələr ətraflarında da amerikan dostlarını və tərəfdaşlarına şübhəylə yanaşmağa başlayacaq. Azərbaycanın isə Amerika tərəfdaşlıqdan imtina etmək fikri yoxdur".

**Politoloq qeyd etdi ki, bu arada, ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan ən çox ziyan çəkəcək şirkət "Qazprom" olacaq:** "Birincisi, ona görə ki, Rusiyanın ən böyük vergi ödəyicisi olan "Qazprom" xarici maliyyə qurumlardından götürdüyü milyardlar hesabına nəhəng layihələrini reallaşdırıb. Şirkətin həmin milyardlara yolu tədricən bağlanacaq. İkincisi, ABŞ-ın Rusiyaya qarşı sərtləşdirdiyi sanksiyaların bir məqsədi də Avropanı Rusiyanın qaz asılılığından azaltmaq və özünün sıxılmış qazını köhnə qitəyə satmaqdır. Rusiyanın Avropaya qaz ixracatçısı isə "Qazprom" şirkətidir. Demək Rusiyaya qarşı sanksiya elə "Qazprom"a qarşı sanksiya deməkdir. Ermənistan tamamən "Qazprom" şirkətinin ixracından asılıdır. "Qazprom" isə Amerikanın sanksiyaları ucbatından siyasi səbəblərdən Ermənistana satdığı qazın qiymətini qaldırmaq məcburiyyətində qalacaq".

**Lakin E.Şahinoğlu zənn edir ki, Amerikanın Rusiyaya qarşı sanksiyalarının sərtləşdirməsinin Azərbaycana da müəyyən təsirlər olacaq:** "Birincisi, sanksiyalar Rusiya iqtisadiyyatına mənfi təsir etdiyindən orada çalışan azərbaycanlılarının evlərinə göndərdikləri maliyyə azalacaq. İkincisi, kənd təsərrüfatı mallarımızın Rusiyaya ixracatında problemlərin sayı artacaq. Odur ki, iqtisadiyyatımızın inkişafına və ixrac bazarlarının sürətlə diversifikasiyasına, o cümlədən Rusiya bazarından asılılığımız azaldılmasına nail olmalıyıq. Məsələnin siyasi tərəfi də var. Rusiya bazarından asılılığımız azaldılması Moskvanın Azərbaycana siyasi təsir imkanlarını da azaltmağa şərait yaradacaq ki, bu da bizim üçün təhlükəsizlik baxımından vacibdir".

**Bəs, Rusiyanın zəifləməsi onun Cənubi Qafqazdan tədricən əl çəkməsinə gətirib çıxara bilərmi? E.Şahinoğlu bunu mümkün saymır:** "Rusiya o qədər zəifləməyəcək ki, Cənubi Qafqazdan, o cümlədən Ermənistana hərbi dəstəkdən əl çəksin". **Ekspert şübhə etmir ki, ABŞ-ın sanksiyaları Rusiya və İranla yanaşı, Azərbaycana da təsir edə bilər:** "İqtisadi mənada təsiri ola bilər. Azərbaycanın Amerika ilə yaxşı münasibətləri də Tehranla Moskvanı qıcıqlandıracaq". **Elə isə çox mürəkkəb bir situasiyanın yarandığını söyləmək olar. Maraqlıdır, Vaşinqtondan Azərbaycanın qarşısına şərt qoyula bilərmi ki, Rusiya və İranla iqtisadi əlaqələri kəssin? E.Şahinoğlu:** "Birincisi, Amerika Bakı qarşısında belə bir şərt qoymaz. İkincisi, hipotetik olaraq belə bir şərt qoysa, bunu Bakı yerinə yetirməz. Bu, heç bizim maraqlara da uyğun deyil".

❑ **Cavid TURAN**

# Tramp Amerikanı və dünyanı hara aparır...

## İndiki prezidentin Amerikası daha sərt və amansız kovboya bənzəməyə başlayıb

**Əslində təxminlər daha əvvəl də vardı: "Tramp gəlsə dünya dəyişəcək" deyə xəbərdarlıq edən insanların sayı az deyildi. Ancaq 2017-ci ilin 20 yanvarında Donald Tramp and içib dünyanın ən güclü ölkəsinin birinci şəxsi vəzifəsinin icrasına başladıqdan sonra proqnozlar bir-bir reallaşmağa başladı. İndi isə mənzərə xeyli dəyişib. Maraqlıdır ki, Trampın "ayağı" yalnız ənənəvi Amerika düşmənlərinə deyil, dostlarına da düşməyib, hər kəs yeni prezidentdən "öz payını" alıb.**



Donald Trampın prezident kimi fəaliyyətə başlamasından az müddət sonra Vaşinqtonun xarici siyasəti yenidən aqressiv ritorika üzərində kökləndi. Prezidentin sərt çıxışları uzun illərdən sonra Kuba və İranla münasibətlərə yenidən kölgə saldı, əldə olunmuş razılaşmalar şübhə altına düşdü. Yenidən Şimali Koreya ilə müharibə vəziyyəti oldu və sair. Ötən 7 ayda Trampın dağıdıcı qərarlarının sayı az deyil.

İlk olaraq ABŞ prezidenti aprelin 7-də Suriyanın Hums şəhəri yaxınlığında yerləşən əş-Şayrat hərbi hava bazasını bombaladı. Bombalama davam etməsə də, Suriyada və ümumilikdə Yaxın Şərqdə hərbi-siyasi vəziyyətə ciddi təsir etdi.

Bir ay sonra isə Səudiyyə Ərəbistanına səfər edən Tramp burada kralla 350 milyard dollarlıq anlaşma imzaladı. Anlaşmanın 110 milyard dollarlıq hissəsi yaxın illərdə ər-Riyada ən müasir silahların satışını nəzərdə tuturdu. Hansı ki, hazırda Səudiyyə Ərəbistanı və müttəfiqləri Yəməndə 2 ildən artıqdır bu ölkəni havadan bombalayır. Ancaq Trampın Yaxın Şərq müttəfiqlərinə "sürprizi" bununla yekunlaşmadı. İyunun əvvəlində 4 ərəb ölkəsi - Səudiyyə Ərəbistanı, Misir, BƏƏ və Bəhreyn Qətərə qarşı terrorizmi dəstəkləmə ittihamı irəli sürdü və əlaqələri kəsdi. Hazırda da böhran davam edir.

Obamanın 2 il davam edən ardıcıl diplomatik səylərinin nəticəsində İranla nüvə sahəsində anlaşma da hələ Tramp vəzifəsinin icrasına başlamamış şübhə altına düşdü. Daha sonra ABŞ hökuməti raket sınaqlarını əsas gətirərək İrana qarşı yeni sanksiyalar tətbiq etdi. Son olaraq ötən ay Konqres Rusiya, İran və Şimali Koreyanı "şər çubucağı" elan edərək hər üç dövləti ABŞ-ın düşməni elan etdi və sərt sanksiyalar qəbul etdi. Artıq rəsmi Tehran da ABŞ-la nüvə sahəsində anlaşmaların taleyinin suallı olduğunu, sanksiyalar davam edəcəyi təqdirdə anlaşmaların qüvvədən düşəcəyini bildirib. ABŞ-ın BMT-dəki səfiri isə yenidən İranın nüvə silahlı əldə etməsi təhlükəsindən danışmağa başlayıb.

Bu ilin iyununda isə D.Tramp sələfi Obamanın necə deyərlər min bir əziyyətlə əldə etdiyi Kuba ilə barışıq anlaşmasını, daha dəqiqi Kuba ilə əlaqələrin normallaşmasına dair qərarı ləğv edib.

ABŞ prezidentinin Rusiya ilə münasibətləri düzəldəcəyinə dair ümidlər isə Konqresdəki rəqibləri sayəsində yox oldu. ABŞ qanunvericiləri Rusiyaya qarşı dalbadal sərt sanksiya qanunları qəbul edib və prezident Tramp bu qanunları imzalayıb.

Ənənəvi müttəfiqlər olan Avropa ilə də münasibətlər heç də rəvan deyil. Çünki Trampın tutduğu kəskin xətt Avropa ölkələrinin ürəyincə deyil. Xüsusən də, Almaniya, İtaliya kimi ölkələr Ağ Evin sahibinin ziddiyyətli hərəkətlərindən narazılıqlarını açıq şəkildə büruzə verirlər.

Nəhayət, uzun illərdən sonra ABŞ yenidən Latın Amerikası ölkələrinə müdaxiləyə qol qoyub. ABŞ hökuməti Venesuelada başlayan iğtişaşlarda hökumətə müxalif qüvvələrə dəstək verir.

Trampın qeyri-standart hərəkətləri, dağıdıcı çağırışları hazırda Vaşiqntonu Şimali Koreya, İran və Şərqi Avropada ruslarla müharibənin kandarına gətirib çıxarıb.

Ancaq maraqlıdır ki, Trampın dağıdıcı fəaliyyəti Amerikanın özündə də təsirini göstərib. Son illərdə ABŞ müşahidə olunan irqçilik çağırışları bir çox ekspertlərin də qeyd etdiyi kimi prezidentin sərt çıxışlarının təsiri ilə yenidən alovlanıb. Ötən həftənin cümə günü irqçi bir qrupun Şarlottesvil vətəndaş müharibəsi zamanı Konfederasiya ordusuna komandalıq etmiş general Robert E.Linin heykəlinin sökülməsi əleyhinə etiraz aksiyası keçirib, bu zaman irqçi şüarlar səsləndirilib. Daha sonra etirazlar daha da böyüyüb və irqçilik əleyhdarları ilə toqquşmalara səbəb olub. İğtişaşların böyüməsindən sonra prezident Trampın reaksiyası vəziyyəti daha da gərginləşdirib. Bir sıra şəxslər Trampın irqçiləri müdafiə etdiyini iddia edib. Prezident isə daha sonra hər iki tərəfi qınayan açıqlama yayıb.

Hazırda ümumi mənzərəyə baxdıqda planetin bütün nöqtələrində müharibə, terror və xaos qorxusu mövcuddur. Qeyri-sabit, proqnozlaşdırılmayan Amerika prezidenti isə hər gün verdiyi açıqlamaları ilə bu vəziyyəti daha da dramatikləşdirir. Hər kəs bir gün səhər ABŞ-ın hansı ölkə ilə müharibəyə başlayacağı düşüncəsindədir. Son 30 ildə "dünya polisi" missiyasını üzərinə götürən Amerika indi daha sərt və amansız kovboya bənzəməyə başlayıb. Bu isə qorxuducudur.

❑ **Kənan RÖVŞƏNOĞLU**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017




# Ermənistan işğala yeni siyasi sponsor axtarışında

İrəvanın Qərbə meyllənməsində ilginc motiv; düşmən Qarabağı Azərbaycana qaytarmamaq naminə hər cür avantüraya hazır görünür; **rusiyalı analitikdən NATO təlimlərinə qatılan Ermənistana sərt sözlər:** "İrəvan özü özünə pislik etdi..."

**Ermənistanda anti-Rusiya ovqatı yenidən güclənib. Bunun əsas səbəbi sözsüz ki, işğalçı ölkənin 1 nömrəli müttəfiqi sayılan Rusiyanın Azərbaycana silah satmaqda davam etməsi olsa da başqa səbəblər də yox deyil. Ancaq baş motiv bu: ermənilər belə hesab edirlər ki, əgər Moskva onların hərbi-siyasi müttəfiqidirsə, o zaman Ermənistanın düşməninə - Azərbaycana adicə patron da satmamalıdır.**


Modest Kolerov

Lakin Rusiya Azərbaycana müasir silahlar və hərbi texnika satmaqla, özü də dünya bazarı qiymətinə satmaqla ən əvvəl para qazanır və öz büdcəsini zənginləşdirir. Yəni, ilk növbədə kommersiya, biznes maraqları güdür.

İkinci yandan, bu yolla Moskva Azərbaycanı müəyyən mənada öz orbitində saxlamağa, özünə bağlamağa çalışır. Ayrı sözlə, bir növ Ermənistanla strateji müttəfiqliyin yaratdığı boşluğu doldurur, guya həm də Azərbaycanın yanında olduğu barədə rəy yaratmaq, balans yaratmaq istəyir.

Hərçənd bu balans Dağlıq Qarabağ probleminin həllinə yox, uzanmasına xidmət edir. Halbuki Moskva arzulasa, münaqişə tərəflərinin silahlanmasına ehtiyac qalmaz və məsələni qısa zamanda, dinc yolla yoluna qoyar. Amma belə görünür ki, İrəvanı Moskvanın kontur-dəlilləri qane eləmir.

Elə olmasaydı, Ermənistan bir ayın içində, ard-arda iki dəfə (Rumıniya, Gürcüstan) NATO təlimlərinə qatılmazdı. Maraqlıdır ki, hər iki iştirak Ermənistanda Rusiya əleyhinə narazılığın gücləndiyi və Rusiya-Ermənistan ortaq hərbi birləşməsinin yaradılması haqda müqavilənin qüvvəyə mindiyi dönəmə təsadüf edib.

***

Hələ ki rəsmi Moskvadan İrəvanın bu de-marşlarına qarşı hər hansı reaksiya gəlməyib. Lakin şimal qonşumuzdakı ekspert dairələrindən sərt reaksiyalar artıq özünü göstərməyə başlayıb. Məsələn, rusiyalı siyasi analitik, erməniyönlü "Regnum" informasiya agentliyinin baş redaktoru, bir qayda olaraq ermənipərəst baxışları ilə seçilən Modest Kolerov belə, İrəvanın NATO-ya reveransına neqativ münasibət ortaya qoyub.

Musavat.com-un məlumatına görə, erməni hərbçilərinin Alyansın Gürcüstandakı hərbi təlimlərində iştirakının Rusiya ilə ortaq hərbi qruplaşma haqda müqavilənin ratifikasiya edilməsi ilə eyni vaxtda düşməsini qeyd edən analitik 1 in.am nəşrinə müsahibəsində deyir: "Görünür, Ermənistan əvvəlcədən bəyan edib ki, özünün çoxvektorlu siyasəti çərçivəsində NATO-nun hərbi təlimlərində iştirak edəcək. Deyə bilərik ki, çoxvektorluluq - təkcə nəzəriyyə deyil, həm də reallıqdır. Çoxvektorluluq - balansdır, tarazlıqdır, bir hərəkətin başqa bir hərəkət hesabına neytrallaşdırılmasıdır. Deməli, Ermənistanın NATO hərbi təlimlərinə qatılması - Rusiya ilə birləşmişi hərbi qruplaşma yaradılması haqda qərarın siyasi cəhətcə neytrallaşdırılmasıdır".

Kolerova görə, bu, məhz Ermənistanın həmişə arzuladığı çoxvektorluluq siyasətdir: "Ermənistanın Gürcüstandakı NATO hərbi təlimlərində iştirakı həqiqətən də siyasi neytrallaşdırmadır, Rusiya ilə ortaq hərbi qruplaşma yaradılmasının balanslaşdırılmasıdır. Ermənistanın istədiyi çoxvektorlu siyasətdir. Beləcə, Rusiya ilə belə bir birgə siyasi-hərbi qərar faktiki neytrallaşdırılıb, halbuki düşmənin çəkisi, təhlükəsi bu ortaq qruplaşma ilə minimallaşdırılıb. Yəni, bundan sonra çox az adam ortaq hərbi qruplaşmadan ehtiyat edəcək. Ermənistan özü bəyan edirdi ki, NATO ilə həmrəylik içindədir. Ancaq bu həmrəylik Türkiyə və Azərbaycanla birgə iştirak fonundadır. Və əgər Ermənistan Türkiyə və Azərbaycanla birgə belə layihələrdə iştirak edirsə, bu, o deməkdir ki, Rusiya ilə birləşmiş qruplaşma ona lazım deyil. Vəssalam".

Rusiyalı analitik hesab edir ki, Ermənistanın NATO təlimlərinə qatılması Rusiya ilə ortaq hərbi qruplaşma yaradılması haqda qərarın keyfiyyətinin və effektliliyini kəskin aşağı salır. "Ermənistan özü-özünə pislik elədi. Heç kim ortaq hərbi qruplaşmadan imtina etməyəcək. Ancaq onun siyasi çəkisi aşağı düşdü, bu qruplaşmadan artıq heç kim, nə Türkiyə, nə də Azərbaycan qorxacaq. Ona görə ki, Türkiyə və Azərbaycanın da NATO ilə eyni münasibətləri var. Deməli, qoy İrəvan Türkiyə və Azərbaycanla barışmaq üçün NATO-nu çağırsın", - deyə politoloq bir az da ironik və hədələyici formada qeyd edib.

Rusiyalı ekspert ABŞ-la Rusiya arasında artan gərginliyin iki həmsədr dövlətin münasibətləri kontekstində Dağlıq Qarabağ konfliktinin nizamlanmasına mümkün təsiri ilə bağlı sualı da cavablandırıb. "Bu günlərdə Minsk Qrupunun amerikalı həmsədri birbaşa və məxsusən sizin üçün (ermənilər üçün - red.) dedi ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi çərçivəsində Amerika-Rusiya əlaqələri zərər görməyəcək".

***

Göründüyü kimi, Kolerovun açıqlamasında Ermənistana ünvanlı kinayəli fikirlərlə yanaşı, ciddi xəbərdarlıq da var. Bu da ondan ibarətdir ki, İrəvan siyasi yönünü gerçəkdən NATO-ya, ABŞ-a dəyişsə, bu, ona çox baha başa gələcək. Eyni zamanda açıqlamada işğalçı ölkəni Türkiyə və Azərbaycanla qorxutmaq məramı var.

Yəni mesaj verilir ki, Ermənistan hara fırlasa, onun yeganə mövcudluq qarantı məhz Rusiyadır, o üzdən Rusiyadan möhkəm yapışmalıdır. Faktiki şəkildə bu, həm də Ermənistana Azərbaycan və Türkiyə ilə barışıq şansı qoymamaq anlamına gəlir. İrəvan isə Bakı və Ankara ilə normal münasibətlər qurmayınca heç vaxt normal inkişaf yoluna qədəm qoya bilməyəcək. O vaxta kimi də Rusiyanın girovu olaraq qalacaq.

**Ermənilər bu gerçəyi nə qədər tez başa düşsələr, təbii ki, ilk növbədə özləri üçün yaxşı olar. Əfsus ki, düşmən ölkəni indi iki böyük qonşu - Türkiyə və Azərbaycanla barışıq yox, sadəcə, sanksiyalar altında getdikcə zəifləyən Rusiya qismində bir himayədarı NATO, ABŞ qismində başqa bir himayədarla əvəzləmək düşündürür. Hədəf də təbii ki, öz işğalçı siyasətinə yeni və daha etibarlı siyasi sponsor qazanmaq, Dağlıq Qarabağın Azərbaycan tərkibinə qaytarılmasına imkan verməməkdir.**


Elman Məmmədov

## "Ermənilərə vətəndaşlıq verə bilərik" - deputat

**"Erməninin harada yaşamasından asılı olmayaraq, o erməni-dir. Ermənıyə yalnız onun əqidəsinə, Azərbaycana olan münasibətinə görə fərq qoymaq olar". Teleqraf.com xəbər verir ki, bunu Milli Məclisin deputatı Elman Məmmədov deyib.**

E.Məmmədov bildirib ki, Dağlıq Qarabağ münaqişəsi başlayana qədər orada yaşayan ermənilər Azərbaycan qanunları ilə yaşayırdılar. Onun sözlərinə görə, əgər indi də onlar Azərbaycan qanunlarını qəbul edib ölkə konstitusiyasına riayət edərlərsə, həmin ermənilərə qanun çərçivəsində vətəndaşlıq verilə bilər.

"Təbii ki, onların içərisində Serj Sarkisyan, Robert Köçəryan kimi qatı cinayətkarlar var. O cinayət törədənlər öz əməllərinə görə cəzalarını alacaqlar. Ancaq azərbaycanlılara qarşı törədilən cinayətlərdə əli olmayan Qarabağ erməniləri ölkəmizin qanunları çərçivəsində yaşamaq istəyirlərsə, dövlətimiz buna hazırdır. Əsas məsələ budur ki, Qarabağ erməniləri Azərbaycanın ərazi bütövlüyünü tanısınlar və ölkəmizin qanunlarını qəbul etsinlər. Hesab edirəm ki, Qarabağ erməniləri gec-tez Azərbaycan qanunları əsasında yaşayacaqlar", - deyə E.Məmmədov qeyd edib.

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# Uğurlu mühacirətin şərtləri - dəyərli məsləhətlər

## Bunlara əməl etməsəniz, mühacirət edə bilməyəcəksiniz...

**Dünya yeni bir mərhələyə qədəm qoyub - köç, miqrasiya, yeni ölkələrdə yeni həyat. Amma heç də hər kəs uğurlu mühacirət həyatına qovuşa bilmir. "Yeni Müsavat" dünya mediasına istinadən uğurlu mühacirətin yolları barədə bir arayış hazırlayıb. İşdi şayət, kimsə mühacirət edibsə və ya etməyə hazırlaşırsa, bu yazını oxumadan keçməsin.**

**Birinci və ən önəmli addım - mühacirət üzrə ən düzgün proqramı seçməkdir.** Öncə müstəqil şəkildə mümkün olan bütün proqramları öyrənin. Həmin proqramlar mühacirət üçün seçdiyiniz ölkənin səfirliyində və ya Daxili İşlər Nazirliyinin saytında yer alır. Əgər özünüzə uyğun ölkə tapmamısınızsa, istədiyiniz xarici ölkənin əcnəbilərlə iş üzrə vəkili ilə məsləhətləşin. Hər bir hal unikaldır və individual olaraq müzakirə olunmalıdır. Təkcə sosial şəbəkə və forumlardakı müzakirələrdən nəticə çıxarmağa tələsməyin.

**Mühacirət etmək istədiyiniz ölkənin dilini öncədən öyrənməyə çalışın.** Rus dilində sizinlə ancaq Rusiyada danışacaqlar. Eyni hal ingilis dili üçün də keçərlidir. Bu dil sizə ancaq ingilisdilli ölkələrdə lazım olacaq. Çox tez-tez insanlar forumlarda şikayətlənirlər ki, İspaniyaya və ya Fransaya gəliblər və yüksək səviyyədə ingilis dili bildikləri halda onları işə götürmürlər. Əvəzində isə ispan və fransız dili tələb edirlər. Əgər əcnəbi dil qismində ancaq ingilis dilini bilirsinizsə və başqa bir əcnəbi dil öyrənmək fikriniz yoxdursa, o zaman ingilisdilli bir ölkəni seçməlisiniz. Mühacirlərin daha bir yanılması isə budur: mən xarici ölkəyə gedən kimi oranın dilini öyrənmək asan olacaq, insanlarla ünsiyyətə girməklə onu öyrənəcəm. Axı heç nə bilmədiyiniz dildə necə danışa bilərsiniz? İnsanların sizə nə dediklərini haradan və necə anlayacaqsız? Ölkəni tərk etmədən öncə gedəcəyiniz ölkənin dilini öyrənin. İndi bunun üçün sonsuz sayda imkanlar var: kurslar, özbaşına öyrənmək, internetdə dərslər, əcnəbi dildə film seyr etmək, mahnı dinləmək, kitab oxumaq, forumlara qatılmaq.



**Uğurlu mühacirətin ən başlıca şərtlərindən digəri isə şəxsi maddi durumdur.** Əgər daimi gəlir yeriniz varsa (təqaüd, əmlak kirayəsindən gələn gəlir və s.) bu halda maddi məsələlər barədə düşünməyə də bilərsiz. Amma daimi gəliriniz yoxsa, bu məsələ barədə ölkəni tərk etmədən öncə düşünməlisiniz. Ümid etməyin ki, yüksək səviyyəli və stajlı həkimsinizsə, Avropaya, ya da Amerikaya gələndən bir həftə sonra öz ixtisasınız üzrə işə düzələ biləcəksiz. Sizin istənilən diplomunuz xarici ölkədə təsdiq tələb edir. Buna isə təkcə bir il getmir. Bəzən yenidən oxumaq, ixtisaslaşmaq, köçdüyün ölkənin sisteminə uyğun təkmilləşmək lazım gəlir.

**Əks situasiyalar da var.** Məsələn, ixtisası musiqi müəllimi olan insan düşünür ki, ona xarici ölkədə ancaq ictimai ayaqyolunu yumaq işi verilə bilər. Halbuki xarici ölkədə adi bir musiqi müəllimi üçün nə kimi möhtəşəm imkanlar açıldığını çox adam bilmir. Bundan başqa, köçdüyü ölkədə rentabelli sayılan peşələrə sahib olmaq da variantlardan biridir. Alimlər sübut edib ki, bir çox hallarda yeni ölkəyə köçmək, hər şeyə sıfırdan başlamaq insanlarda yeni potensiallarını, gizli istedadlarını kəşf etmək üçün təkan rolunu oynayır. Bu məsələlərin təhlili və insanın özünə yeni yol seçməsinə yardım olan məsləhətxanalar var ki, onların yardımından maksimum yararlanmaq lazımdır.

**Siz xarici ölkəyə böyük pullarla gəlmiş olsaz da, yenidən pul qazanmaq haqda düşünməlisiniz.** Çünki hər bir bazanın sürətli xərcləndiyi halda tükənmək ehtimalı güclüdür Əgər arzuladığınız sahə üzrə öz biznesinizi dərhal başlamağa hazır deyilsizsə, istənilən işə gedin. Əsas odur ki, başlayın. Bu, sizə ilk müddətdə maddi baxımdan özünüzü təmin etməyə imkan verəcək. Bundan başqa, cəmiyyətə assimilyasiya olmaq, yeni qanunlarla tanışlıq, xarici dil qabiliyyətinin inkişaf etdirilməsi də bu imkanlara daxildir.

**Yaşayacağınız xarici ölkəni seçəndə ən ucuz olanı yox, çox iş imkanı olan ölkəni seçin.** Çox vaxt insanlar özlərini daha çox ona kökləyirlər ki, ölkələrindən gətirdikləri pulla daha çox yaşaya biləcəklər. Nəticədə isə vaxt gedir, iş yoxdur və insanlar bazalarındakı pulu da xərcləyirlər. Bu isə mühacirlərin yol verdiyi tipik səhvlər siyahısındadır. İlk gündən mühacirlər özlərini ona öyrəşdirməlidirlər ki, bir aydan sonra pul qazanmağa başlamalıdırlar, nəinki yığılanı xərcləmək.

**İkievli miqrasiya heç də uğurlu variant deyil.** Yəni, əgər siz hansısa xarici ölkəyə köçəndə "mən gedib baxacam. Vəziyyət xoşuma gəlməsə qayıdacam" deyirsinizsə, artıq özünüzü bu miqrasiyanın uğursuz olacağı üzrə proqramlaşdırırsınız. Çünki doğma evinizdə, vətəninizdə hər şey aydındır, risksizdir, klassikdir. Çörək də daha dadlıdır. Ən pis vəziyyətdə qohumlarınız yardımçı ola bilər. Əgər siz miqrasiyada uğur qazanmağı hər şeydən çox istəyirsinizsə, geriyə bütün yolları kəsməlisiniz. Əks halda, sizdə heç nə alınmayacaq. Bir ayağınızı daim qaçaraq qoyacaqsınız. Ölkənizdə olan hər şeyinizi satın. O halda "ehtiyat bir aerodrom"unuz olmayacaq, bütün körpülər yanmış sayılacaq və itirmək şansınız da qalmayacaq. 2 ev, 2 iş yeri, 2 ölkə arasında qalan insanların uğur qazanma şansı sıfıra bərabərdir. Nə vaxt ki, "ev variantı" sıfırlanır, bu halda insanlar sürətlə uğura doğru addımlayırlar.

**Müavinət - bu, olduqca zərərli qazancdır.** Müavinət alıb, qaçqın düşərgələrində uzun müddət qalmağı hədəfləyənlər üçün həyat çox dözülməz olur. Onlar bu cür yaşam tərzinə öyrəşirlər ki, bu da zərərlidir. Əksinə, tez bir müddətdə öyrəşdiyiniz həyat tərzinə qayıtmaq daha məsləhətlidir.

**Heç də hər şeyi pulla ölçməyin.** Əksinə, yaşamağı seçdiyiniz ölkədə çox şeyə pozitiv baxmağı öyrənin. Təbii ki, bu zaman reallıq hissinizi də itirmək lazım deyil. Olduğunuz ölkəni kəşf etməyi və daha çox sevməyi öyrənin. Bəlkə sizə hər şeyə və hər kəsə çəhrayı eynəklər arxasından baxdığınızı deyirlər? Qoy olsun. Əsas odur ki, siz pozitivlik hissinizi itirməmisiniz. Sizi bu pozitivlik dənizindən çıxarmaq istəyən hər kəsi yan-yörənizdən rədd edin. Onların varlığı sizə ancaq neqativ gətirəcək.

**Uğurlu miqrasiya üçün həmin ölkənin vətəndaşları ilə daha çox dostluq etməyə çalışın.** Bu, sizin adaptasiyanıza da yardım edəcək.

**Özünüzlə xarici ölkəyə gətirdiyiniz pulları dərhal daşınmaz əmlaka sərf etməyin.** Bu da miqrantların ən böyük səhvlərindən biridir. Onlar hesab edirlər ki, əgər başlarının üstündə şəxsi damları varsa, həyatları problemsiz olacaq. Bəzən insanlar gəldikləri ay araşdırma aparmadan dərhal mənzil alırlar. Halbuki öncə ölkədə qısa bir səyahət etmək, hər şeylə maraqlanmaq və daha sonra sevdiyin bölgədə, şəhərdə, küçədə.... ev almaq məsləhətdir. Ancaq o halda istisnalar qüvvəyə minir ki, aldığınız evin pulundan əlavə olaraq, böyük məbləğdə vəsaitə sahibsiniz.

**Gəmidə oturub gəmiçi ilə dalaşmaq doğru deyil.** Köçdüyünüz ölkənin qayda-qanunlarına riayət etməyə çalışmaq lazımdır. Ölkənin insanlarını, qayda-qanunlarını, mentalitetini, adətlərini sevməyə çalışmaq lazımdır. Ya da ən azından hörmət etməyə. Bu ölkəni qurub yaradan insanlara hörmət edin. Nəzərə alın ki, burda heç kəs sizi səbirsizliklə gözləmir və ya gəlişiniz üçün xüsusi dəvətnamə yollamayıb. Ölkənizdəkindən fərqli olan detallarda xoş bir şeylər tapmağa çalışın. Miqrasiya bütün hallarda stressdir. Amma bundan yorulmaq əvəzinə, onu təcrübəyə, həyəcana və yenilikləri öyrənmə aclığına çevirin. Bu halda hər şey əyləncəli olacaq. Axı siz həqiqətən də həyatınızı dəyişdirmək istəyirdiniz.

❑ **Sevinc TELMANQIZI**

# «Yalan danışan» monitorlar

## Mais Ağayev: "Sistemin yenilənməsi istiqamətində işlər aparılır"







**Bakı nəqliyyatın intellektual idarəetməsinə keçildikdən sonra avtobus dayanacaqları da dəyişdirildi. Həmçinin dayanacaqlara xüsusi monitorlar da quraşdırıldı ki, bunların da funksiyası sərnişinlərin rahatlığını təmin etmək idi. Belə ki, plana görə sərnişinlər həmin monitorlar vasitəsilə marşrutların getdiyi yol, onların gəlmə vaxtları ilə bağlı geniş məlumat əldə edə biləcəkdilər. Bunun üçün yüz minlərlə manat vəsait xərcləndi, sistem quruldu, lakin görülən işlər nəticəsiz qaldı. Çünki monitorlar bir müddət sonra işləmədi.**

Hazırda da vəziyyət heç də qənaətbəxş deyil. Şəhərin bəzi yerlərində bu monitorlar kənardan işlək vəziyyətdəymiş kimi görünsələr də, sərnişinlər narazılıq edirlər. Xüsusilə də gecə saatlarında sərnişinlər işləyən monitorların əlindən zara gəlirlər. Sərnişinlər bildirirlər ki, işləməyən monitorlar, işləyənlərdən daha faydalıdır. Çünki qeyri-işlək monitorlar onları aldatmır:

"Ən azından bilirik ki, işləmir və yazılan rəqəmlərə baxıb aldanmırıq. Şəhərin mərkəzi küçələrində bəzi monitorlarda avtobusların gəlmə vaxtı göstərilir. Ancaq digər funksiyalar bərbad vəziyyətdədir. Bəzən monitorun üzərindəki düyməni basırıq, heç vaxtı da göstərmir və sönür. Məlumdur ki, gecə saat 12-dən sonra bir çox marşrutlar fəaliyyət göstərmirlər. Ancaq monitorlara gəlin baxın və görəcəksiniz ki, orada hələ də avtobusun gəlmə vaxtı göstərilir", deyə sərnişinlər bildirirlər.

**Nəqliyyat üzrə ekspert Azər Allahverənov** "Yeni Müsavat"a bildirib ki, əslində turistlərin Bakıya axın etdiyi yay fəslində bu monitorların işləməməsi böyük nöqsandır:

"Turist gəlir, monitora baxır ki, müvafiq ünvanına getsin. Ancaq görür ki, monitor işləmir. Bu isə ölkənin ictimai nəqliyyat sektoru barəsində çox mənfi rəy formalaşdırır. Ancaq halbuki ölkənin ictimai nəqliyyat sektoruna nəzər salsaq, görürük ki, son zamanlar müsbətə doğru xeyli dəyişikliklər var. Təəssüflər olsun ki, bu cür lokal narazılıqlar ümumi inkişafı da görməyə imkan vermir. İctimai nəqliyyatdan istifadə edən zaman dəfələrlə görürəm ki, sakinlər harasa gedəndə çaş-baş qalırlar. Şəxsən mənim özümdən dəfələrlə ünvan soruşublar. Bu onu göstərir ki, şəhərə gələn qonaqlar və eləcədə sakinlərin özləri bu informasiyanı əldə etmək imkanından məhrumdurlar. Hər kəs "141"-ə zəng edə bilmir axı. Ona görə də monitorlar olduqca vacib bir alətdir. Təəssüf ki, onlar işləmirlər. İstərdim ki, monitorlar nəyinki, avtobusların gəlmə vaxtını göstərsinlər, onlar daha intellektual olsunlar. Yəni həmin monitorlara informasiya ötürüb, cavab almaq mümkün olsun. Hələ 10 il öncə Londonda bu kimi monitorlardan istifadə edib, şəhərin müxtəlif yerlərinə hansı avtobusların gedəcəyini öyrənə bilirdim. Bakıda da bu cür olmalıdır".

**Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev** "Yeni Müsavat"a bildirib ki, bu barədə işlər aparılır:

"Bildiyiniz kimi, monitorlar bizdən öncə quraşdırılıb və quraşdırılan zaman da yaradılan sistemlərdə böyük problemlər olub. Ona görə də monitorlar bu gün işləmir. Hazırda paytaxt ərazisində 1200 dayanacaqdan 600-ündə monitor var. Onlardan da 400-dən çoxu sistemə inteqrasiya olunub. Sistem - qeyd etdiyim kimi - problemli qurulub. İndi isə sistemin yenilənməsi müəyyən vaxt aparır. Biz hazırda bu istiqamətdə çalışırıq. Çətin proses olsa da agentlik tərəfindən bu istiqamətdə iş aparılır ki, dövlətin çəkdiyi xərclər nəticəsiz qalmasın və camaatımız rahat şəkildə bu sistemdən istifadə edə bilsinlər".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

**Müasir zəmanəmizdə qeysəriyyə əməliyyatı çox sadə və rahat uşaq dünyaya gətirmə üsulu sayılır və ana olmağa hazırlaşan bir çox xanımlar, xüsusən də doğuş sancılarında qorxan xanımlar bu yolu seçirlər. Lakin səbəbsiz edilən qeysəriyyə əməliyyatının da fəsadları var.**

# Qeysəriyyə, yoxsa təbii doğuş - hansı daha təhlükəsizdir?

## Cərrah-ginekoloq Nərmin Qəribova: "Qeysəriyyə bəzən ana və dölün həyatını qurtarmaq üçün yeganə çıxış yolu olur"



Bir neçə gün öncə Tovuz rayon Yanıqlı kənd sakini, 1988-ci il təvəllüdlü Oksana Əliyeva əməliyyat zamanı vurulan narkozdan komaya düşüb və dünyasını dəyişib. Azərbaycanda qeysəriyyə yolu ilə hər il 30 minə yaxın körpə doğulur ki, bu da doğuşların təxminən 20 faizi deməkdir. Halbuki Dünya Səhiyyə Təşkilatının məlumatına görə, bu rəqəm 15 faizi keçməməlidir. Bir çoxları qeysəriyyə əməliyyatlarının arxasında biznes maraqları durduğunu və buna görə də klinikaların ehtiyac duyuldu-duyulmadı, ana olmağa hazırlaşan xanımları qeysəriyyə əməliyyatına aldıqlarını düşünür.

Qeyd edək ki, təbii doğuşla qeysəriyyə əməliyyatı arasında 200-300 manata yaxın bir fərq olur. Məsələn, özəl klinikaların əksəriyyətində təbii doğuş 1000 manata, qeysəriyyə əməliyyatı isə 1200 manata həyata keçirilir.

*Maraqlıdır, hansı hallarda qeysəriyyə əməliyyatına ehtiyac duyulur? Təbii doğuş yoxsa qeysəriyyə əməliyyatı ilə həyata keçirilən doğuş təhlükəsizdir?*

Uzman **cərrah-ginekoloq Nərmin Qəribova** bildirdi ki, ana və uşaq üçün ən sağlam olanı təbii doğuşdur, ancaq bəzi hallarda qeysəriyyə əməliyyatı da vacibdir: "Normal doğuş adından anlaşıldığı kimi doğuşun təbii şəklidir. Bu səbəbdən də ana və uşaq üçün ən sağlıqlı olan formasıdır. Qeysəriyyə əslində doğuşun növlərindən biri deyil. Qeysəriyyə doğuşun normal yollarla həyata keçirilməsi mümkün olmadıqda, yaxud ana və ya dölün risk altında olduğu hallarda onların sağlamlığını qorumaq üçün aparılan bir əməliyyatla körpənin dünyaya gətirilməsidir. İstəyə bağlı olaraq aparılan qeysəriyyə əməliyyatı heç də sağlam bir hal deyil. Yəni bəzən ana namizədlər elə düşünürlər ki, normal doğuş zamanı körpəni riskə atmış olurlar və təbii doğuş zamanı uşaqlar hər hansı bir fəsad ala, bu, onun gələcək həyatına təsir göstərə bilər. Əslində isə doğuş həm ana, həm də uşaq baxımından hər şey qaydasında və normal şəkildə gedirsə, həm ana, həm uşaq üçün gələcəkdə heç bir problem təşkil etməyən fizioloji bir prosesdir. Bir qarın əməliyyatı ilə gerçəkləşən doğuşun normal yolla, bir neçə tikişlə gerçəkləşən doğuşdan daha sağlıqlı ola bilməz. Bütün elmi araşdırmalar da bunu göstərməkdədir. Amma belə bir həqiqət də var ki, ana və uşağın həyatını təhlükəyə sala biləcək bir hal varsa və yaxud normal doğum mümkün deyilsə, bu zaman qeysəriyyə əməliyyatı faydalıdır. Həqiqətən də bəzən bizim üçün ana və dölün həyatını qurtarmaq üçün bu bir çıxış yoludur. Qeysəriyyə üçün bir göstəriş olmadığı halda ananın normal doğuş etməsi həm özü, həm də uşaq baxımından daha sağlam olanıdır".

**N.Qəribova ana və ya döldə aşağıdakı hallar müşahidə edildikdə ana və uşağın sağlamlığı üçün qeysəriyyə əməliyyatının olduqca vacib olduğunu bildirdi:** "Normal doğuş zamanı deyək ki, doğuş fəaliyyəti başladı, ancaq dölün enişində və yaxud uşaqlıq boynunun açılmasında irəliləmə olmaması, doğuşun normaldan uzun davam etməsi halında, normal doğuş zamanı dölün ürək döyüntülərində dəyişkənlik olması, daha çox yavaşımaların olması, hansı ki, buna fetal stress deyirik, bəzən dölün yan mayesinin çox olması və yaxud göbək ciyəsinin öndə yerləşməsi ilə bağlı ani dölyani maye axması ilə bərabər, göbək ciyəsinin uşaqlıq boynundan vaginaya sallanması, göbək ciyəsinin sıxılması durumunda qeysəriyyə əməliyyatı şərtdir. Bundan başqa, doğuş gedişatı dövründə aşırı qanaxmanın olması, ciftin müəyyən bir hissəsinin uşaqlıq divarından ayrılması, dölə bağlı olan düzgün olmayan gəlişlər - sağrı gəlişi, transpers gəliş, yəni baş pozisyasından kənarda olan gəlişlər, uşaq kilosunun çox olması, baş çanaq uyğunsuzluğu, yəni uşağın başının çanaq darlığına bağlı olaraq ananın doğum kanalından keçə bilməyəcək qədər böyük olması və yaxud uşaq başlığının normal olmayacaq şəkildə olması, çox döllü - əkiz və ya üçüz hamiləliklər qeysəriyyə olmalıdır. Bəzən əkiz və üçüz hamiləliklərdə də təbii doğuş etmək mümkün olur. Daha öncə 1 dəfə qeysəriyyə əməliyyatı ilə doğuş həyata keçirmiş xanımlar bəzi kriteriyalar daxilindədirsə, normal doğuş həyata keçirə bilərlər. Əgər anada uşaqlıq boynunu və yaxud vaginanı tutacaq qədər böyük şiş varsa, eyni zamanda bəzi aktiv infeksion xəstəliklər varsa, həmçinin, uşağın özünə bağlı qüsurlar, anomaliyalar, anaya bağlı olaraq daha öncə keçirilmiş, məsələn, vaginal estetik əməliyyat varsa, həmin hissədə normal doğum təkrar pozulmalara səbəb olduğu üçün qeysəriyyə əməliyyatına üstünlük verilməlidir. Ananın özünə bağlı bəzi problemlər, hətta hamiləlik zamanı ortaya çıxan ani təzyiq yüksəlişi, anada yanaşı gedən ürək qüsurları və ya başqa orqanlarda pozğunluqlar getdiyi zaman ana və dölün həyatını riskə atmamaq üçün qeysəriyyə əməliyyatına üstünlük verilər bilir".

❑ **Günel MANAFLI**

# Uşağı necə cəzalandıraq

## Fransız pedaqoqdan qızıl kimi məsləhətlər

**Uşaq tərbiyəsi bütün valideynlərin "Axilles dabanı"dır. Aldığımız ali təhsilin səviyyəsindən, mütaliəmizdən, məlumatlılıq səviyyəmizdən asılı olmayaraq, zaman-zaman bu məsələdə büdrəyirik. Daha çox azadlıq verməli, ya nəzarəti gücləndirməli? Maksimum həlimlik, ya dəmir sərtliyi? Bəli, ətraf mühitin, məktəb çevrəsinin, telefonun, internetin də qarşımıza çıxan böyük əngəllər olduğunu düşünsək, uşağı onlardan maksimum necə qorumağın yollarını tapmaq çətinləşir.**



40 ildən artıq təcrübəsi olan, peşəkar fransalı pedaqoq Üget Roza (Huguette Rose) publika.az saytına müsahibəsində uşaq tərbiyəsinin spesifik cəhətlərindən danışıb. Onun müsahibəsində ideal valideyn olmağın yollarından bəhs edilib. Öncə ondan başlayaq ki, Ü.Roza Fransada uşaqların 4 yaşından etibarən "ana məktəbi"nə qəbul edildiyini bildirib. Onun sözlərinə görə, burada onlar daha sərbəst olmağa, öz ayaqları üstə durmağa, təbii ehtiyaclarını tam ödəmək və s. kimi vərdişlərə alışdırılırlar. Hər gün fasilələrlə bir neçə saat uşaqlarla məşğələlər keçirilir: "Bu isə sözsüz ki, əyləncəli şəkildə baş verir. Müxtəlif uşaq mahnıları, oyunlar və əlvan şəkilli kitabların köməyilə onlar əlifbanı öyrənməyə hazırlaşırlar. Əl işləri hazırlayır, rəsmlər çəkirlər. İkinci mərhələ isə 6 yaşdan etibarən başlayır. Bu mərhələdə balacaları yormadan, oxuyub-yazmaq öyrədilir. Onlar hazırlıq dövründə keçdiyi məşğələlərdən sonra bu mərhələdə yorulmurlar. Bəzən isə yazıb-oxumaq mərhələsini də iki hissəyə ayırırıq. Məsələn, 6 yaşda hazırlıq, 7 yaşdan sonra isə yazıb-oxumaq. İmtahan 6 yaşlı uşağın sinir sisteminə çox pis təsir edə bilər. Hesab edirəm ki, bu yaşda uşağın belə məsuliyyətə cəlb edilməsi düzgün deyil".

**Pedaqoq eyni zamanda bildirib ki, ibtidai siniflərdə uşaqlara ilk tədris illərində yazıb-oxumaq, rəqəmləri öyrənib, sadə hesablama işlərinin öhdəsindən gəlmək, həndəsi fiqurlar haqda anlayış vermək, ətraf aləmlə bağlı sadə biliklər toplamaq, musiqi və idman dərsləri tədris etmək, sadə hekayələr öyrətmək yetərlidir. Ü.Roza eyni zamanda müəllimlərin uşaqlara necə yanaşmalı olmasının detallarından da danışıb. Onun fikrincə, müəllim uşağın güvənini qazanacaq qədər təbii və sakit səslə ünsiyyətdə olmalıdır:** "Müəllimin əsas məqsədi şagirdinin inamını qazanmaqdır. Əgər uşaq bir neçə dəfə irad tutmağınıza rəğmən səhvini anlamırsa, səs tonunuzu bir az qaldırıb, daha amiranə tərzdə danışmaq olar. Lakin hətta cəzalandırarkən belə bunu daxili rahatlığınızı qoruyaraq, səsini yüksəltmədən edin. Təbii ki, inkişaf etmiş sivilizasiyalarda fiziki şiddətdən söhbət gedə bilməz. Bu barbar cəza üsulu sayılır. Lakin səhvini başa salmaq üçün onu sevimli məşğuliyyətindən uzaqlaşdırmaq və ya sinif yoldaşları ilə birgə əylənməkdən məhrum etmək olar. Hətta bunu edərkən belə təmkini qorumaq mütləqdir".

Biz azərbaycanlıların "qadın müəllimə uşaq üçün daha doğmadır" yanaşmasının əksinə olaraq, pedaqoq deyib ki, kişi müəllimlə ünsiyyət övladınızın atası ilə münasibətinə də müsbət təsir edəcək: "O, atası ilə də anası qədər rahat və sərbəst davrana biləcəyini dərk edəcək. Bu hal cəmiyyətimizdə böyüyən oğlan övladlarımıza daha çox fayda verir. Çünki onlar qarşılarındakı müəllimdən nümunə götürüb, onun kimi güclü, cəsarətli və mərhəmətli olmağı öyrənəcəklər".

❑ **Hazırladı: SEVİNC**



## İmişli və Sabirabadda Qarabağ müharibəsi iştirakçılarına ev verildi

**Sabirabad və İmişli rayonlarında Qarabağ müharibəsi iştirakçıları üçün fərdi yaşayış evləri tikilib.**

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən inşa olunan 5 fərdi yaşayış evinin orderləri Qarabağ müharibəsi iştirakçılarına, müharibədə əlil olmuş şəxslərə təqdim olunub.

Orderlərin təqdim olunma mərasimində nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun direktor müavini Əminə Seyidzadə, fondun digər rəsmiləri və rayon icra hakimiyyətlərinin nümayəndələri iştirak edib.

# Ağdaşda bələdiyyə sədrinin oğlu qətlə yetirildi



**Ağdaş rayonunda qətl hadisəsi törədilib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Qəribli kəndində qeydə alınıb. Kənd sakini 1980-ci il təvəllüdlü Savxanov Cabir Möylan oğlu şəxsi münasibətlər zəminində aralarında baş verən dava zamanı həmkəndlisi, 1995-ci il təvəllüdlü Həsənov Sahib Baris oğlunu bıçaqlayıb.**

Sol budun kəsilmiş-deşilmiş yarası diaqnozu ilə Ağdaş rayon Mərkəzi Xəstəxanasına çatdırılan Sahib Həsənov orada dünyasını dəyişib.

Məlumata görə, Sahib Həsənov bıçaqlanandan sonra hadisə yerində köməksiz vəziyyətdə qalaraq çoxlu qan itirib və rayon mərkəzindən 40 kilometr aralıda yerləşən Qəribli kəndindən xəstəxanaya 2 saat sonra gətirilib. Hadisənin hansı səbəbdən baş verdiyi hələ ki, məlum deyil. Mərhum Sahib Həsənov Qəribli kəndinin daxil olduğu Aşağı Nəvətava kənd bələdiyyəsinin sədri Baris Həsənovun oğludur.

**Kənd icra nümayəndəsi Nicat İsmayılov Yenicag.az-a açıqlamasında hadisə ilə bağlı ətraflı məlumat verib:**

"Sahiblə Cabir qonşu olublar, əvvəllər də aralarında heç bir münaqişə, düşmənçilik olmayıb. Dünən bizim icra nümayəndəliyində çalışan işçimizin övladının toyu idi. Mən də, Sahib, Cabir və Sahibin atası da elə o toyda idik. Biz gündüz saat 1-də Sahibin atasıyla toydan çıxdıq. Kənddə də toy saat 8-də başa çatır axı. Toydan sonra kəndin uşaqları, o cümlədən də Sahiblə Cabir mağardan çıxıb, məhəllədə yığışıblar. Bu məqamda Cabirlə Sahib mübahisə edib. Cabir içkili olub. Mübahisə vaxtı cibindən bıçaq çıxararaq, Sahibi ayağından vurub. Ətrafdakı uşaqlar hay-küy salıblar, atasına xəbər veriblər. O məqamda da Sahibi qan aparıb, xəstəxanaya aparanda da gec olub. Elə xəstəxanaya çatanda keçinib. Necə özlərini itiriblərsə, onu yaxınlıqdakı Yevlax xəstəxanasına deyil, Ağdaşa aparıblar".

N.İsmayılovun dediyinə görə, 22 yaşlı Sahib iki bacının bir qardaşı imiş. Nişanlı olan Sahibə atası gələn ay toy edəcəkmiş.

**Faktla bağlı Ağdaş rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.**



## Azərbaycanda arxeoloji qazıntı zamanı aşkarlanmış nadir tapıntılar oğurlandı

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası tərəfindən Lerikdə aparılan qazıntılar zamanı aşkar olunmuş nadir tapıntılar oğurlanıb.**

APA-nın cənub bürosunun xəbərinə görə, nadir tapıntılar rayonun Gürdəsər kəndinin Piboz təpə adlanan ərazisində aparılmış qazıntılar zamanı aşkar edilmişdi.

Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən hadisəni törədən şəxs və ya şəxslərin tapılması istiqamətində tədbirlər görülür, yerli sakinlərin evlərində axtarış aparılır. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri doktoru Maisə Rəhimova APA-ya faktı təsdiqləyib. O bildirib ki, məsələ ilə əlaqədar aidiyyəti qurumlara müraciət olunub.

Qeyd edək ki, bir müddət əvvəl Lerik rayonunda Arxeologiya və Etnoqrafiya İnstitutunun apardığı arxeoloji qazıntılar zamanı eramızdan əvvəl V əsrə aid edilən məzarlıq aşkarlanıb. Piboz təpə adlanan ərazidə tapılan məzarlığın 2500 il bundan əvvələ aid olduğu müəyyən edilib. Ekspedisiyanın rəhbəri Ceyhun Eminli mətbuata bildirib ki, ərazidə 120-dən çox qəbir tapılıb. Qəbirlərdə qılınclar, nizələr, bıçaqlar, xəncərlər, gümüş və tuncdan hazırlanmış bəzək əşyaları və maraqlı bədii tərtibatı olan saxsı qablar da aşkar edilib.

## Abşeronda 5 avtomobili qarət edən yeniyetmə saxlanılıb

**Abşeron rayonunda avtomobillərdən oğurluq edən yeniyetmə yaxalanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Abşeron RPİ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində avqustun 9-da rayon ərazisində "Hyundai" markalı avtomobildən 60 manat pul, videoqeydiyyat qurğusu və velosiped oğurlamaqda şübhəli bilinən Masazır qəsəbə sakini olan yeniyetmə tutulub.**

Ətrafında aparılan tədbirlərlə onun rayon ərazisində daha 4 avtomobildən pul, mobil telefon və təmir-tikinti alətləri oğurlaması da müəyyən edilib.

## Şəmkirdə kütləvi dava: 2 nəfər bıçaqlandı

**Şəmkirdə kütləvi dava olub, iki nəfər bıçaqlanıb. ARB 24 xəbər verir ki, hadisə Gəncə-Şəmkir avtomobil yolunda fəaliyyət göstərən kafelərdən birində qeydə alınıb.**

Bir neçə nəfərin iştirakı ilə baş verən davada rayon sakinləri 31 yaşlı Toğrul Vəliyev və 37 yaşlı İntiqam Rəhimov bıçaq xəsarətləri ilə xəstəxanaya yerləşdiriliblər. Onlara tibbi yardım göstərilib.

Vəziyyətləri kafi qiymətləndirilir.

Fakt araşdırılır.

## Gədəbəydə 14 yaşlı yeniyetmə öldürüldü

**Gədəbəy şəhərindəki parkda rayon sakini T.Şabanova bıçaqla xəsarət yetirməkdə şübhəli bilinən yeniyetmə saxlanılıb. Moderator.az DİN-in saytına istinadən xəbər verir ki, avqustun 15-də Gədəbəy şəhərindəki parkda naməlum şəxs rayon sakini 14 yaşlı Turay Şabanova bıçaqla xəsarət yetirərək hadisə yerini tərk edib. T.Şabanov xəstəxanaya aparılarkən yolda ölüb.**

Gədəbəy RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində hadisəni münaqişə zəminində törətməkdə şübhəli bilinən, rayon sakini olan yeniyetmə saxlanılıb.

Faktla əlaqədar cinayət işi başlanılıb.

## Qadın bulvarda özünü dənizə ataraq intihar edib

**Bakıda qadın özünü dənizə atmaqla intihar edib. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə şəhərin Səbail rayonunda Dənizkənarı Milli Parkda baş verib.**

Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasedicilər hadisə yerinə cəlb olunub. Təxminən, 50-55 yaşlarında olan qadın meyiti sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.

## Bələdiyyə sədrləri cərimələndi

**Azərbaycanda iki bələdiyyə sədri cərimələnib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında və çimərliklərdə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər həyata keçirir.**

Belə ki, cari ilin iyul və avqust ayları ərzində birgə keçirilən belə tədbirlər zamanı paytaxtın Yasamal, Xətai, Səbail, Binəqədi, Sabunçu, Qaradağ, Xəzər rayonları, eləcə də respublikanın Abşeron rayonu və Sumqayıt şəhəri ərazilərində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərinin pozulması hallarına görə 30 protokol tərtib edilib, 10-dan artıq istirahət mərkəzinin rəhbərləri, iki bələdiyyə sədri və fiziki şəxslər inzibati məsuliyyətə cəlb ediliblər. Onlara tətbiq olunan cərimələrin məbləği 37.150 manat təşkil edib.

Ümumilikdə isə ilin əvvəlindən bu günədək məişət tullantılarını tutumlardan (urnalardan) kənar yerlərə atdıqlarına görə 488 nəfər inzibati məsuliyyətə cəlb edilib, həmin şəxslərə ümumilikdə 79.610 manatdan artıq cərimələr tətbiq olunub.

Hazırda göstərilən istiqamətlərdə tədbirlər davam etdirilir.

## Bakıda 14 yaşlı qız itkin düşüb

**Paytaxtda 14 yaşlı qız itkin düşüb. APA-nın xəbərinə görə, hadisə Yasamal rayonunda qeydə alınıb. Rayon sakini, 2003-cü il təvəllüdlü Ləman Məmmədzadənin itkin düşməsi barədə polisə məlumat daxil olub.**

Daxil olan məlumat əsasında axtarışlara başlanıb.

## İran vətəndaşını avtomobillə vuraraq öldürən sərxoş taksi sürücüsü həbs olunub

**Sabunçu rayonunun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində yol nəqliyyat hadisəsi törədərək hadisə yerindən qaçmış sürücü tutularaq istintaqa cəlb edilib.**

Musavat.com xəbər verir ki, bununla bağlı Bakı şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu birgə məlumat yayıb.

Belə ki, avqustun 14-də paytaxtın Sabunçu rayonu ərazisində 1968-ci il təvəllüdlü Qurbanov Vaqif Əsədulla oğlunun idarə etdiyi "London Taxi" markalı 10-TH-387 dövlət nömrə nişanlı avtomobillə İran İslam Respublikasının vətəndaşı Heydəri Həsən Vali oğlunun idarə etdiyi "OKA" markalı 10-NX-581 dövlət nömrə nişanlı avtomobilin hərəkət yoluna çıxaraq toqquşması nəticəsində sonuncunun aldığı bədən xəsarətlərindən hadisə yerində ölməsi və V.Qurbanovun hadisə yerindən qaçması faktına görə rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 263.2 (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Aparılan təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində V.Qurbanov tutularaq istintaqa cəlb edilib.

V.Qurbanovun avtomobili sərxoş vəziyyətdə idarə etməsi müəyyən edildiyindən onun əməli Cinayət Məcəlləsinin 263-1.3 (sərxoş halda yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələrinə tövsif edilib.

V.Qurbanov iş üzrə təqsirləndirilən şəxs qismində cəlb olunaraq ona Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Yasa gedən şəxslər qəzaya düşdü - ölənlər və xəsarət alanlar var

**Masallıda ağır yol qəzası olub. APA-nın Cənub bürosunun verdiyi məlumata görə, hadisə Ələt-Astara yolunun Masallı rayonunun Alvadı kəndindən keçən hissəsində qeydə alınıb. Bakı şəhər sakini, 1965-ci il təvəllüdlü Nazim Əkbər oğlu Həsənov idarə etdiyi "Toyota Prado" markalı avtomobili aşırıb. Nəticədə avtomobildə olan sərnişinlər - 1968-ci il təvəllüdlü Aidə Həsənova və Afər Əmrahov aldıqları xəsarətdən dünyasını dəyişiblər.**

Avtomobilin sürücüsü və digər sərnişin Həsənov Zamiq Rafiq oğlu xəsarətlə Masallı Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Onu da qeyd edək ki, avtomobildəki şəxslər Bakıdan Lənkərana yas mərasimində iştirak etmək üçün gediblər. Hadisə onlar yas mərasimindən qayıdan zaman baş verib.

YENİ MÜSAVAT
N 171 (6785) 17 avqust 2017

# Günəş tutulması fəlakətlər gətirə bilərmi...

## Astroloqlardan maraqlı proqnozlar; **ekspert:** "Bəzən bunu qəbul etməyən insanlar"...

**Bir neçə gündən sonra - avqustun 21-də tam Günəş tutulması hadisəsi baş verəcək. Mütəxəssislər qeyd edir ki, tutulma 2 saat 45 dəqiqə davam edəcək. Lakin hadisə gecə vaxtı baş verdiyindən tutulmanı Azərbaycanda izləmək mümkün olmayacaq. Qismən Qərbi Avropanı və Cənubi Amerikanı əhatə edəcək tam tutulmanı yalnız ABŞ sakinləri izləyə biləcək. İlk dəfə olaraq ABŞ-ın bütün ştatlarını əhatə edəcək Günəş tutulmasına "Böyük Amerika tutulması" adı verilib. Tutulma zamanı Günəş aktivliyini dünyanın ən güclü teleskopu olan DKİST vasitəsi ilə izləniləcək.**



Qeyd edək ki, buna qədər də bir neçə dəfə Günəş tutulması hadisəsi baş versə də ölkəmizdə görünməyib. Alimlərin proqnozlarına görə Azərbaycanda tam tutulma 2060-ci ilin aprelin 30-da gözlənilir. Həmin vaxta qədər baş verən tutulmalar isə qismən tutulmalar olacaq.

*Bəs Günəş tutulması necə baş verir?*

Ümumiyyətlə həm Günəş, həm də Ay tutulmaları təbiətin ən maraqlı hadisələrindən biridir. Hələ qədim zamanlardan bu hadisələr insanları düşündürüb. 3000 il bundan əvvəl yaşayan Çin astroloqları tutulmaların baş vermə tarixini artıq əvvəlcədən müəyyən edə bilirdirlər. Müasir astronomiyanın isə Günəş və Ay tutulmalarının Yer səthinin hansı hissəsində və nə vaxt baş verəcəyini çox böyük dəqiqliklə təyin etmək imkan var. Ayın Günəş diskinin qarşısını kəsməsinə və ya örtməsinə Günəş tutulması deyilir. Günəş tutulması qismən, tam və halqavari ola bilər. Günəş tutulması Ay Yerlə Günəş arasında olanda, yəni təzə Ay fazasında baş verir. Təzə Ay fazasında Ay Günəş şüalarının qarşısını kəsir və Yerə tərəf konus şəkilli kölgə buraxır. Yer səthinin tam kölgə bölgəsində olan müşahidəçi üçün tam Günəş tutulması, yarımkölgədəki müşahidəçi üçün isə qismən Günəş tutulması baş verir. Ayın orbit müstəvisi ekliptika müstəvisi ilə 05-09 dərəcəlik bucaq əmələ gətirdiyindən hər təzə Ay fazası Günəş tutulması ilə nəticələnmir. Günəş tutulmasının baş verməsi üçün təzə Ay fazası Ay orbitinin düyünlərinə və ya ona yaxın yerlərə təsadüf etməlidir. Venera və Merkuri də Günəş diski qarşısından keçərkən tutulma törədir.

*Tutulmaların insan orqanizminə təsiri varmı?*

Ekspertlər dəfələrlə qeyd ediblər ki, bu hadisələrin insan orqanizmi üçün heç bir təhlükəsi yoxdur, adi astronomik hadisədir.

Lakin bəzi dünya astroloqları Günəş tutulmasının kütləvi ölüm hadisələri, təbii fəlakətlər gətirəcəyini iddia edirlər. Bu iddiaları isə bundan əvvəl baş vermiş təbii fəlakətlərlə əlaqələndirirlər. Məsələn, 1999-cu ildə tam Günəş tutulmasından sonra Türkiyədə dəhşətli Mərmərə zəlzələsi baş vermişdi. Avqustun 17-də səhər saatlarında baş verən zəlzələ zamanı 18 mindən çox insan həlak olub, 24 min insan yaralanıb, 505 nəfər ömürlük şikəst qalıb. Beləliklə, budəfəki tam tutulmadan sonra yenə fəlakətlər, təyyarə qəzaları, partlayışlar, dövlət xadimlərinə sui-qəsdlər olunacağı haqda iddialar var.

İngilis alim Daid Meadanın verdiyi proqnoz isə insanlar arasında daha böyük təşviş yaradıb. Onun iddiasına görə Günəş tutulması zamanı "Nibiru" adlı bir planet Yerlə toqquşacaq hər şey məhv olacaq.

Lakin onun iddiası NASA tərəfindən dərhal təkzib edilib.

David Meadenin "X Gezegeni-2017 Geliyor" (Planet X-The 2017 Arrival) adlı kitabında dünya ilə toqquşacağını dediyi "Nibiru" adlı planetin Cənub Qütbündən yaxınlaşdığını, bu səbəbdən də NASA tərəfindən müəyyənləşdirilmədiyinə inanan insanlar var.

Beləliklə, böyük Günəş tutulması ilə bağlı insanları narahat edən bir sual var - Bu tutulma fəlakətlər gətirə bilərmi?

**Tanınmış astroloq Səbuhi Rəhimli** mövzu ilə əlaqədar "Yeni Müsavat"a danışıb. Onun sözlərinə görə böyük Günəş tutulmasından narahat olmağa dəyməz:

"Hər il ən azı 2 Ay, 2 Günəş tutulması olur və onlardan minimum biri tam tutulma olur. Ay tutulandan 15 gün sonra mütləq Günəş tutulur. Onların biri (Ay və gün tutulması) ilə digərinin arasında mütləq yarım il vaxt olur. Ay tutulması mütləq Ay bədirlənəndə (yumru olanda), gün tutulması isə mütləq təzə Ay doğanda baş verir. Ay tutulanda Yer Günəşlə Ayın arasından keçir, gün tutulanda isə Ay Yerlə Günəşin arasından keçir.

Avqustun 21-də baş tutacaq böyük Günəş tutulması məqamında Ay Şir bürcündə olacaq. Bu dövr sağlam düşüncə, müstəqqilik və liderlik üçün münasib vaxtdır. İnsanlar həvəsə gəlir, tez-tez riskə gedirlər. Hüquqi və rəsmi işlərlə məşğul olmaq, hakimiyyətlə və nüfuzlu şəxslərlə əlaqəyə girmək, yeni işə başlamaq üçün uğurlu dövrdür. Ay Şir bürcündə olanda dostluq münasibətləri qurmaq, hədiyyə vermək, paltar və qiymətli əşyalar almaq məsləhətdir. Bununla yanaşı tikintiyə başlamaq, qonaq qəbul etmək və ya qonaq getmək, sərgiyə, teatra, muzeyə getmək üçün çox münasib məqamdır. Bu zaman kəsiyində maliyyə sazişləri, müqavilələri bağlamaq, təzə evə köçmək məsləhət deyil. Nigah bağlamaq, kollektiv surətdə işləmək, rəhbərliyi tənqid etmək heç bir səmərə verməyəcək".

**Astroloq verə biləcək neqativ təsirlərdən də söz açıb**:

"Ay Şir bürcündə olarkən insanlarda belin (kürəyin) həssaslığı artır, ürək-damar sistemi daha zəif olur. Ürək döyüntüləri sürətlənir və ürəyin işləməsində müxtəlif pozuntular baş qaldırır. Tez-tez yuxusuzluq, ürək və kürəkdə ağrılar əmələ gəlir. Belə vəziyyətdə müalicə edən həkimin məsləhəti ilə profilaktik ölçülər götürmək və ürəkdə gərginliyi minimuma endirmək vacibdir. Belə günlərdə təkcə ürəyin dəyişilməsi üçün planlı əməliyyata başlamaq yox, həm də ağır idman yarışlarını təxirə salmaq lazımdır. Əks halda bu vaxt qazanılmış rekordların qiyməti olduqca yüksək ola bilər - ən pis nəticə korlanmış sağlamlıq olmayacaq. İmkan daxilində Ay Şir bürcündən keçən zaman uzaq yola çıxmamaq yaxşıdır. Çünki istənilən səyahət üçün vacib olan ağır çemodan və bel çantalarını daşımaq, həmçinin orqanizmin adət etmədiyi digər başqa ağırlıqlar səyahətçinin səhhətinə neqativ təsiri göstərə bilər".

**Astroloq Firudin Qurbansoy** da qeyd edib ki, böyük Günəş tutulmasının fəlakətlər gətirəcəyi fikri əsassızdır:

"Xatırladım ki, 1999-cu ildə böyük Günəş tutulmasını Türkiyədə insanlar böyük şadyanlıqla, bayram kimi keçirdilər, konsertlər təşkil etdilər. Hətta konsertləri birbaşa canlı yayımla təqdim edirdilər. Əslində Günəş tutulması əlbəttə ki, təbiət hadisələrindən biridir. Bəzən bunu qəbul etməyən insanlar qeyri-adi bir hadisə kimi qeyd edirlər və tanrı da onları cəzalandırır. Amma hər Günəş tutulması olanda hansısa fəlakətlər baş vermir. Türkiyədə baş verən zəlzələ istisna bir hal idi. Bir daha qeyd edirəm ki, Günəş tutulmasının hansısa fəlakətlərə yol aça biləcəyi fikri doğru deyil. Hər il azı 2 dəfə Günəş, 2 dəfə də Ay tutulması baş verir".

❑ **Xalidə GƏRAY**

# "Qarabağ"ın oyunundan sonrakı "zibil dağı"nın səbəbi bilindi

## Məhəmməd Türkmən: "Hər girişin yanında zibil qutuları olmalıdır..."

**Xəbər verdiyimiz kimi, avqustun 15-də Çempionlar Liqasının pley-off mərhələsinin oyunları keçirilib. Təmsilçimiz "Qarabağ" klubu Danimarka çempionu "Kopenhagen"lə qarşılaşıb. Tofiq Bəhramov adına stadionda keçirilən oyunun həyəcanını bilet tapanlar stadionda, tapmayanlar isə televiziya başında yaşadılar.**



Amma oyundan bir gün sonra sosial şəbəkədə yayılan bir mənzərə antisanitariya rəzalətini üzə çıxardı. Məlum oldu ki, matça gedən azarkeşlərin su butulkalarından ibarət "zibillik dağı" "Gənclik Mall"ın düz qarşısındadır. Bu mənzərənin yaranmasında azarkeş məsuliyyətrsizliyi, yoxsa zibil qutularının yetərsizliyi faktor kimi rol oynayıb sualı isə hələ də insanı düşündürür. Bu mənzərənin dünya ölkələrindəki bütün irimiqyaslı matçlardan sonra yaşandığı da səslənən arqumentlər sırasındadır. Amma durum bizim təxmin etdiyimiz qədər də bəsit deyil...

Bu matçları mütəmadi olaraq stadiondan izləyən **"Yeni Müsavat" qəzetinin əməkdaşı Məhəmməd Türkmən** bizə açıqlamasında yaranmış mənzərənin səbəbini təhlil etdi. Həmkarımız bildirdi ki, bütün dünyada qəbul olunan qaydaya görə, azarkeşlər stadiona qablaşdırılmış su qutuları, alışqan, fişəng, bıçaq və buna bənzər əşyalarla girə bilməzlər. Onun sözlərinə görə, bu qadağa oyun zamanı hər hansı bir azarkeşin hirslənib, futbolçuya, hakimə və ya başqa bir azarkeşə ziyan verməməsi üçün tətbiq edilir: "Dünənki*(srağagünkü-S.T.)* matçda da vəziyyət eyni idi. Zibil "dağlarının" yaranma səbəbi də bu qadağalardır. Amma bunu daha səliqəli etmək olar. Məsələn, 31200 azarkeş tutumu olan stadionun ərazisində olan zibil qutuları heç 10 min adama bəs etmir. Girişdə də vəziyyət eynidir. Su qutuları ilə içəri keçə bilməyən azarkeşlər qutuları öz sıralarını çox da tərk etmədən yaxın əraziyə atmağa məcbur oldular. Nəzərə almaq lazımdır ki, 30 min azarkeş stadiona girməyə çalışır. Orada 1-2 saat sıra olur. Kimsə sıradan çıxmaq istəmir. Əraziyə də ən yaxın zibil qutuları 100-150 metr kənardadır. Hansı ki, oyundan sonra oranın da tam dolu olduğunu gördük. Azarkeşlərin stadiona daxil olduqları yerdə isə ümumiyyətlə zibil qutuları yada düşməyib. Yüzlərlə su qutusu bir yerə toplanandan sonra bir neçə plastik zibil qutusu gətirdilər. Onları da boşaldan yoxdursa heç bir işə yaramır".

**M.Türkmən bir azarkeş və jurnalist olaraq stadion rəhbərliyinə də müraciət etdi. Dedi ki, rəhbərlik 90 dəqiqdən çox futbola baxan azarkeşlərin də su içməli və nəsə yeməli olduğunu nəzərə almalıdır**: "Üstəlik bu istidə susuz qalmaq olmur. Deməli, buna bir çarə düşünülməlidir. Matça minlərlə adam gəlir. Oxşar mənzərənin yaranmaması üçün qapılar azı 4-5 saat öncədən açılmalıdır. Hər girişin yanında zibil qutuları olmalıdır. Dolan kimi dərhal boşaldılmalıdır. Hər şeyə çarə var. Əsas odur ki, istəsinlər".

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 171 (6785) 17 avqust 2017




## Baş-beyin qabığı insanın populyar olub-olmamasını müəyyənləşdirir

ABŞ alimləri tədqiqat apararaq bəzi insanların hansı səbəbə görə digər insanlardan daha çox diqqət cəlb etməsini öyrənmək istəyiblər. Tədqiqatçılar əsas kimi insanın sosial şəbəkələrdə özünü aparmasını götürüblər. Eksperiment iştirakçıları insanları fotoşəkil ilə qiymətləndirən zaman onların beyini baş-beyinin daha fəal hissələrini müəyyənləşdirən funksional maqnit-rezonans tomoqrafiyası metodu ilə öyrənilib. Məlum olub ki, insanların digərlərini populyar kimi qəbul etməsinə baş-beyin qabığında olan xüsusi neyron qiymətləndirmə sistemi cavabdehdir. Sistem hətta bu və ya digər insanların ətrafdakılar üçün onların özlərini cəlbedici hesab etməsələr belə cəlbedici olmasını müəyyənləşdirir.

Neyron qiymətləndirmə sistemi haqqında məlumatlar başqa insanların statusu barədə təsəvvürün bizim davranışımıza necə təsir göstərməsini anlamağa imkan verir.

## İspan oğlan dünyanın ən cazibədar tibb qardaşı seçildi

İspaniyanın Madrid şəhərindəki xəstəxanalardan birində çalışan Fren Suarez adlı tibb qardaşı dünyanın ən cazibədar tibb qardaşı seçildi. Bu barədə lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər yayıb. Xəbərə görə, tibb qardaşı olmaqla yanaşı, Fren model kimi çalışır və rəqs edir. İspan gənc idman zalında müntəzəm məşğul olmaqla özünü formada saxlaya bilir. Bundan başqa, o, İnstaqram sosial şəbəkəsində də bir səhifə aparır. Suares həm xəstəxanadakı iş prosesindən, həm də idman zalındakı məşğuliyyətlərindən





maraqlı fotolar paylaşır. Hazırda 54.6 min instaqram izləyicisi onu təqib edir.

Yanvar ayında isə məlum olmuşdu ki, Norveçdən olan 30 yaşlı yanğınsöndürən Qunn Narteni sosial şəbələdə 48.5 min nəfər izləyir. İzləyiciləri bu qadını təkcə cazibədar görkəminə görə yox, eyni zamanda fitneslə bağlı faydalı məsləhətlərinə görə də izləyirlər.

## 1.5 ton ağırlığında qayğanaq bişirdilər



Belçikanın fransız dilində danışılan cənubundakı Malmedi qəsəbəsində təşkil olunan nəhəng qayğanaq festivalı bu il də böyük diqqət görüb. Zəhərli yumurta qalmaqalına baxmayaraq, qəsəbə meydanında qurulan 1.5 ton ağırlığında və 4 metrlik tavada bişirilən qayğanaq üçün minlərlə yumurtadan istifadə olundu. Tədbirin təşkilatçılarından olan François Traille böyük qayğanaq üçün 10 min ədəd yumurta qırdıqlarını deyib. Bundan başqa, festivalda ifa edilən mahnıların da böyük maraqla qarşılandığı müşahidə edilib. Traille eyni zamanda istifadə olunan yumurtalarla bağlı olduqca həssas davranıldığını bildirib.

Qəsəbə camaatı ilə yanaşı, digər şəhər və ölkələrdən gələn insanlar da yumurtaların qırılması və bişirilməsini böyük maraqla izləyib. Yumurtaların qırılmasına özəl kostyumlar geyinən uşaqlar da yardım edib. Qazanlarda yığılan qırılmış yumurtalar böyük tavaya töküləndən sonra qarışdırılmağa başlanıb. Bişən qayğanaq daha sonra boşqablara bölünərək, uşaqların köməyi ilə tədbirə qatılanlara paylanıb. Qəsəbə sakinləri 22 ildir davam edən ənənədə çox əyləndiklərini, auranın çox gözəl olduğunu söyləyib. Hollandiyadan gələn bir cütlük isə deyib ki, böcək dərmanlı yumurta qalmaqalına baxmayaraq, qayğanağı yeməkdən qorxmurlar. İyi qayğanaq ənənəsi Fransa, ABŞ, Kanala və Argentinada da davam etdirilir.




QOÇ - Günün ümumi görüntüsü işlərinizin normal tərzdə cərəyan edəcəyinə əsas verir. Hər hansı qanqaraçılığı və ya məyusluq ehtimalı yoxdur. Ailə zəminində isə hər şey ürəyinizcə olacaq.

BUĞA - Müəyyən çalarlarına görə, bəxtinizə ziddiyyətli təqvim düşüb. Qarşılaşdığınız proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə yönələcək. Pul məsələlərində ehtiyatlı olun.

ƏKİZLƏR - İxtiyarınızda olan bu təqvimdə aktivliyi artırmağınız vacibdir. Bunun öhdəsindən gəlsəniz, ulduzlar sizə yardımçı olacaq. Yaxın adamlarınızdan xəstələnən varsa, mütləq ona baş çəkin.

XƏRÇƏNG - Həddindən ziyadə uğurlu ərəfədir. Mövcud sıxıntı və nigarançılığınızı aradan qaldırmaq üçün ətrafınızdakılar sizə yardımçı olacaqlar. Günün ikinci yarısı bu baxımdan daha münasibdir.

ŞİR - Əgər ixtiyarınızda olan bu təqvimdən zövq almaq istəyirsinizsə, oturaq işləri məhdudlaşdırın. Çünki ulduzlar bürcünüzə olduqca romantik görüş və əyləncələr bəxş edəcək. Buna hazır olun.

QIZ - Saat 16-ya qədər nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirməkdə çətinliyiniz olmayacaq. Ailə-sevgi zəminində isə yeni mərhələyə qədəm qoyacaqsınız.

TƏRƏZİ - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq üçün əhəmiyyətli vaxtdır. Boş dayanmaqdansa səylərinizi birləşdirib yalnız irəli getməlisiniz. İşıq ucu gələn bütün yollara baş vurun.

ƏQRƏB - Saat 14-ə qədər olan ərəfə istisna olmaqla qalan saatları yüksək əhval-ruhiyyədə başa vuracağınız ehtimal olunur. Axşama yaxın darıxdığınız insanlara baş çəkməyə çalışın.

OXATAN - Yaxın ünsiyyətdə olduğunuz insanların əksəriyyəti problemlərinizin həllində böyük rol oynayacaqlar. Bu, çıxardığınız qərarlardan, atdığınız addımlardan birbaşa asılı olacaq.

OĞLAQ - Maliyyə məsələlərində uğurlarınız mümkündür. Axşamı hər hansı məclisdə keçirməyiniz daxili nigarançılığınızı azaldacaq. Qonşu və qohumlarla münasibətləri məcrasından çıxarmayın.

SUTÖKƏN - Nəzərdə tutduğunuz əksər sahələrdə irəliləyişə nail olacaqsınız. Həmkarlarınızla ünsiyyətdə obyektiv olun. Öz müsahiblərinizə bacardığınız qədər güzəştə gedin. Böyüklərin məsləhətini qulaqardına vurmayın.

BALIQLAR - Bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Hansısa ciddi və riskli işlərə qol qoymamalısınız. Bu günün işini sabaha saxlamayın. Qərarlarınızda qəti olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Həşəratdan hazırlanan yeməklər satışa çıxarılacaq



İsveçrədə iri supermarket şəbəkələrindən biri həşəratlardan ibarət qida məhsullarının satışına başlayacaq. Bu haqda lenta.ru saytı "The Guardian"a istinadən xəbər verib. 21 avqustda "Coop" mağazalarında un qurdlarından və tərəvəzlərindən hazırlanan kotletlər satışa çıxarılacaq. Bu, İsveçrədəki Essento firmasında hazırlanır və iddia edilir ki, belə qida dadlı, doyurucudur. Bundan başqa, onun kənd təsərrüfatı heyvanlarının ətindən daha təhlükəsiz olduğu da deyilir. May ayında İsveçrə tərkibində həşərat olan qida məhsullarının satışına icazə verən ilk Avropa ölkəsi oldu. Qanuna görə, həşəratlar ciddi nəzarət altında yetişdirilməlidir. Bundan başqa, ilk üç nəsil qida üçün istifadə oluna bilməz. Məhz bu məhdudiyyətə görə istehsalçılara bir neçə ay lazım gəlib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.